# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin

# 2007-ci il üçün

# İllik Hesabatı

**«Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» qəbul olunmuş**

**Qanun Dövlətin Milli Cəmiyyətimizə olan münasibətinin parlaq göstəricisidir.**

Öncə onu qeyd edim ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti 87 illik şərəfli tarixi yol keçmiş, hər zaman humanitar sahədə xalqın rifahı naminə yorulmadan çalışan, humanizm, mərhəmət, xeyirxahlıq kimi hissləri özündə tərənnüm etdirərək daim xalqına və dövlətinə xidmət etmişdir. Bu gün də bu ənənələr layiqincə davam etdirilir.

Qızıl Aypara Cəmiyyəti respublikada ən böyük sosial bazaya malik qeyri hökumət təşkilatlarından biridir və hazırda bizim 230 000-dən yuxarı üzvümüz və 16 000-ə yaxın könüllümüz vardır. Yeri gəlmişkən onu da qeyd edim ki, gənclər və könüllülər daim tərəfimizdən keçirilən kütləvi tədbirlərdə fəal iştirak edirlər. Bu da Hərəkatın fundamental prinsiplər əsasında respublikada vüsət almasının göstəricisidir.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını respublikada təmsil edən yeganə Milli Cəmiyyət kimi əsas məramımız, Beynəlxalq Hərəkatın fundamental prinsiplərini rəhbər tutaraq Beynəlxalq Humanitar Hüquq normaları çərçivəsində peşəyə, yaşa, milli və dini mənsubiyyətə, siyasi əqidəyə fərq qoymadan insansevərlik və xeyirxahlıq, mərhəmət və humanizm prinsipləri əsasında, 1949-cu il Cenevrə Konvensiyaları, ona əlavə olunan protokollar, eyni zamanda Azərbaycan Respublikasının Qanunlarına və digər qanunvericilik aktlarına, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yeni qəbul olunmuş qanununa müvafiq olaraq əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə, qaçqın və məcburi köçkünlərə, bir sözlə insanların qayğıya həssas təbəqəsinə təmənnasız tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlərin göstərilməsindən ibarətdir.

Milli Cəmiyyətin fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasından istifadə edərək öncə maliyyə təminatının gücləndirilməsi məqsədilə müvafiq strategiya müəyyənləşdirilmiş və bunun sayəsində xarici donor təşkilatlarının müxtəlif layihələrə cəlb olunması əsas prioritet kimi seçilmişdir. Inkişaf etmiş digər Milli Cəmiyyətlərin müasir iş təcrübəsini özünün praktik fəaliyyətinə tətbiq edən Az.QAC, həmçinin, həyata keçirilən uğurlu fəaliyyəti zamanı qazandığı nailiyyətləri Beynəlxalq Hərəkatın təmsilçiləri tərəfindən yüksək dəyərləndirilir.

Bu il Milli Cəmiyyətimiz üçün əlamətdar olmuşdur. Cəmiyyətimiz haqqında Azərbaycan Respublikasının Qanununun qəbul olunması bizim üçün çox böyük əhəmiyyətə malikdir. Belə ki, maddi-texniki bazanın göcləndirilməsi istiqamətində bu qanun qarşımızda böyük imkanlar açır və bunun sayəsində Qızıl Aypara Cəmiyyəti daha da inkişaf edərək dövlətinə və xalqına humanitar sahədə böyük töhfələr verəcəkdir. Bizim üçün ən fərəhli hal odur ki, bu qanun layihəsi Az.QAC-ın fəxri üzvü olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunaraq 08 May 2007 ci il tarixdə Milli Məclis tərəfindən qəbul edildi və dövlət başçısının 22 May 2007-ci il tarixli Fərmanı ilə qüvvəyə mindi.

Hələ 1999-cu ildə Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Assambleyasında, o cümlədən, beynəlxalq konfransda Azərbaycan hökuməti Qızıl Aypara Cəmiyyəti haqqında qanun qəbul olunması ilə bağlı öhdəlik götürmüşdü. Digər tərəfdən, bir çox dövlətlərdə belə bir qanun qəbul edilib.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin respublikada həyata keçirdiyi müxtəlif sosial-tibbi, fəlakətlərin nəticlərinin aradan qaldırılması istiqamətində layihələri, əhalinin sağlamlığı və fəlakətlər zamanı davranış qaydalarının, ilk yardım vərdişlərinin mənimsənilməsi istqamətində kifayət qədər uğurların əldə edilməsinə zəmin yaratmışdır. İcma iştiraklı inkişaf metodunun yerlərdə tətbiqi üzrə həyata keçirilən proqramlar, insan resurslarının maksimum səfərbər edilməsi, qarşıya çıxan problemlərin həllinə birgə çalışmaları, yerli icra orqanları ilə qarşılıqlı işgüzar münasbətlərin inkişafı yerli komitələrin inkişafına verilən ən böyük töhfələrdəndir.

Az.QAC-ın strategiyası Beynəlxalq Hərəkatın standartlarına uyğun və fundamental prinsiplər əsasında qurulmuşdur. Bu da bütün Milli Cəmiyyətlərin, o cümlədən də Az.QAC-ın Beynəlxalq Hərəkat çərçivəsində daha sıx əməkdaşlıq edərək humanitar dəyərlərin aşılanması istiqamətində uğurlu fəaliyyətini təmin etmişdir.

Az.QAC eyni zamanda Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyi ilə sıx əməkdaşlıq edir. Birgə həyata keçirilən layihələr sayəsində bir çox problemin həllinə nail olmuşuq. Xüsusən, cəbhə bölgələrində yerləşən kəndlərin əhalisinin mina təhlükəsindən qorunması məqsədilə kifayət qədər əməli işlər görülüb və “Təhlükəsiz oyun meydançalrı” layihəsi məhz belə layihələrdəndir.

Cəmiyyətimiz bu il səhiyyə sahəsində kifayət qədər işlər görmüşdür. Səhiyyə sahəsində həyata keçirilən uğurlu fəaliyyətin məntiqi nəticəsi olaraq 30 dekabr 2007-ci il tarixdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə ikitərəfli münasibətləri özündə təsbit edən əməkdaşlıq memorandumu imzalanmışdır.

18 dekabr 2007-ci il tarixdə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və ANAMA (ərazilərin minalardan təmizlənməsi üzrə Azərbaycanın Milli Agentliyi) arasında minalar və müharibənin partlayıcı qalıqları (MPQ) nəticəsində həlak olmuş və zərərçəkmiş insanlar haqqında məlumatların toplanması üzrə razılaşma Memorandumu imzalanmışdır.

ANAMA və Qızıl Aypara arasında yaranan bu əməkdaşlığın əsas məqsədi mina və müharibənin partlayıcı qalıqları olan təhlükəli ərazilərdə yaşayan mülki əhalini bu təhlükədən qorumaq, hadisə baş verdiyi zaman onun fəsadlarını aradan qaldırmaq və zərərçəkmişlərə dəstək olmaqdan ibarətdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti beynəlxalq əlaqələri inkişaf etdirməklə bir çox nailiyyətlər əldə etmişdir. Cəmiyyətin əməkdaşları çoxsaylı beynəlxalq görüşlərdə, seminarlarda, konfranslarda iştirak edərək Cəmiyyəti və Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmişlər. Rusiya, Türkiyə, İran İslam Respublikası, Ərəb və bir çox Avropa dövlətləri ilə işgüzar əməkdaşlığımız davam etdirilir.

Ümumiyyətlə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2007-ci ildəki nailiyyətlərini nəzərə alaraq bütün işçi heyətə, könüllülərə və fəxri üzvlərə öz minnətdarlığımı bildirirəm.

**Dr. Novruz Aslanov**
**Azərbaycan Qızıl Aypara**
**Cəmiyyətinin prezidenti,**
**Milli Məclisin deputatı**

## Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının

## Fundamental Prinsipləri

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

### QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

### NEYTRALLIQ

Hamının ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloci mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

### MÜSTƏQİLLİK

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyatlərını qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

### KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

### VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

### UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludurlar.

# Fövqəladə Hallara Hazırlıq və Cavabvermə

**MƏQSƏD**:

Fövqəladə hallara hazırlıq üzrə imkansız icmaların fəlakət barədə məlumatlılığının artırılması və fəlakətdən zərər çəkmiş zavallılara ilkin humanitar yardımın göstərilməsi

**FƏALİYYƏTLƏR**:

## Əhalinin maarifləndirilməsi üzrə:

- 10 Aprel-6 May 2007-ci il tarixlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara hazırlıq və Cavabvermə Şöbəsi Cəmiyyətin Ucar rayon komitəsinin və yerli icmanın iştirakı və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının maliyyə dəstəyi ilə İcmanın fəlakət barədə məlumatlandırılması layihəsinə əsasən Ucar rayonunda məktəblilər arasında «fəlakəti necə təsəvvür edirəm və fəlakət baş verərsə mən nə edərəm?» mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.
  6 May 2007-ci il tarixində yekun toplantıda Ucar rayonu İcra hakimiyyəti başçısının müavini Nadir Mirzəliyev və digər rəsmi şəxslər iştirak etmişlər

- 19 Oktyabr 2007-ci il tarixində «Beynəlxalq Risk Azaltma Gününə» həsr edilmiş ağacəkmə kampaniyası həyata keçirilmişdir.
  Tədbirdə Az.QAC-ın Mingəçevir, Ucar, Oğuz, Göyçay, İsmayıllı rayonlarından gəlmiş 54 işçi və könüllüsü Qəbələ rayonunda torpaq sürüşməsi zonası ətrafında 250 ağac əkmişdir.

## İşçilərin və Mobil könüllü dəstələrin (MKD) təlimləndirilməsi üzrə:

- AzQAC-ın 7 RM-nin hər birində işçilərə və MKD-ə «Fövqəladə hallarda vəziyyətin və ehtiyacların qiymətləndirilməsi, «fəlakət yardımları zamanı Qızıl Xaç və Qızıl Aypara üçün prinsip və qaydalar» və «fəlakət yardımları zamanı Qızıl Xaç və Qızıl Aypara üçün davranış qaydaları» treyninqləri keçirilmişdir.

| Tarix | Rayon | İştirakçılar | Sayı |
|---|---|---|---|
| 08.02.07 | Gəncə | Komitə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 20 nəfər |
| 09.02.07 | Mingəçevir | Komitə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 22 nəfər |
| 22-23.02.07 | Lənkəran | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 20 nəfər |
| 15-16.03.07 | Sabirabad | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 20 nəfər |
| 09-10.04.07 | Gəncə | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 19 nəfər |
| 24-25.04.07 | Naxçıvan | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 20 nəfər |
| 16-17.08.07 | Mingəçevir | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş | 20 nəfər |

| | | | |
|---|---|---|---|
| | | üzrə Koordinator və RM-in koordinatoru | |
| 07.09.07 | Lənkəran | Komitə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 20 nəfər |
| 04-05.10.07 | Sumqayit | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 20 nəfər |
| 28.10.07 | Gəncə | Komitə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 20 nəfər |
| 13-14.11.07 | Mingəçevir | İşçi və Könüllülər | 22 nəfər |
| 16.11.07 | Sumqayit | Komitə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 20 nəfər |
| 21.11.07 | Bakı | Komitə sədrləri, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 20 nəfər |
| 22-23.11.07 | Bakı | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 19 nəfər |
| 25.11.07 | Sabirabad | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 18 nəfər |
| 28.11.07 | Mingəçevir | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 19 nəfər |
| 04.12.07 | Gəncə | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 19 nəfər |
| 07.12.07 | Lənkəran | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 19 nəfər |
| 14.12.07 | Sumqayıt | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinatorlar və RM-in koordinatoru | 19 nəfər |
| 19.12.07 | Bakı | Mobil Könüllü Dəstələr, İlk Yardım və gənclərlə iş üzrə Koordinator və RM-in koordinatoru | 18 nəfər |

- 8 Fevral və 9 Fevral tarixlərində uyğun olaraq Gəncə və Mingəçevir Regional Mərkəzlərinin Komitə sədrlərinə və icma üzvlərinə «İcmanın fəlakət barədə məlumatlılığının artırılması» mözusunda treyninq keçirilmişdir.
- 7 Sentyabr tarixində Lənkəran Regional Mərkəzinin Komitə sədrlərinə və icma üzvlərinə «İcmanın fəlakət barədə məlumatlılığının artırılması» mözusunda treyninq keçirilmişdir.
- 9 Oktyabr tarixində Sabirabad Regional Mərkəzinin Komitə sədrlərinə və icma üzvlərinə «İcmanın fəlakət barədə məlumatlılığının artırılması» mözusunda treyninq keçirilmişdir.
- 16 Noyabr tarixində Sumqayıt Regional Mərkəzinin Komitə sədrlərinə və könüllülərə «İcmanın fəlakət barədə məlumatlılığının artırılması» mözusunda treyninq keçirilmişdir.
- 13-14 Noyabr 2007-ci il tarixdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi öz fəaliyyətinə uyğun olaraq Cəmiyyətin Mingəçevir Regional Mərkəzində Cəmiyyətin 22 əməkdaşı və könüllülərinin iştirakı ilə «Fəlakətin idarə edilməsi» mövzusu üzrə 2 günlük təlim keçirmişdir.
- 21 Noyabr tarixində Bakı Regional Mərkəzinin Komitə sədrlərinə və könüllülərə «İcmanın fəlakət barədə məlumatlılığının artırılması» mözusunda treyninq keçirilmişdir.

## Təchizat üzrə:

- Fəlakətlərə cavabvermə məqsədilə əlavə anbar ehtiyatları: 100 ədəd gigiyenik dəst, 592 döşək və 136 ədəd səyyar qaz balonları alınmışdır.
- Beynəlxalq standartlara uyğun olaraq «Fövqəladə hallarda vəziyyətin və ehtiyacların qiymətləndirilməsi» kitabçası Azərbaycan dilinə tərcümə edilərək çap edilmiş, işçi və könüllülərə paylanmışdır.
- Mərkəzi anbarda rəflər hazırlanmış müvafiq mallar bu rəflərdə yerləşdirilmişdir.
- Müvafiq təlimlər üçün Beynəlxalq Federasiyanın standartlarına uyğun Risk azaltma modulu ingilis dilindən azərbaycan dilinə tərcümə edilmişdir.
- Mərkəzi anbar üçün 1 kompüter və 1 printer alınmışdır.
- Könüllülərin cəlb edilməsi üçün 2 tennis stolu alınmışdır.

## Qarşılıqlı əməkdaşlıq üzrə

- Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında bağlanmış memoranduma əsasən sıx əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə işçi qrupu yaradılmışdır.
- Fövqəladə hallara hazırlıq işini gücləndirmək məqsədilə yeni layihələrin hazırlanması üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, Beynəlxalq Federasiyanın və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı əməkdaşlarının üç tərəfli görüşü keçirilmişdir.
- 11 Aprel 2007-ci il tarixdə FHHC şöbəsinin müdiri Elşən Səlimzadə Dünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliynin ofisində «Ümumdünya səhiyyə günü»nə həsr edilmiş görüşdə iştirak etmişdir.
- 1-3 May 2007-ci il tarixində Beynəlxalq Qızıl Xaç Komitəsinin dəvəti ilə Gürcüstanın Tbilisi şəhərində «fövqəladə hallarda ailə əlaqələrinin bərpası və onun fəlakətlərə cavabvermə planında yeri və rolu» mövzusunda seminarda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fövqəladə hallara hazırlıq şöbəsinin sektor rəhbəri R. Həsənov və Axtarış xidmətinin rəhbəri A. Mirzəzadə iştirak etmişlər. Seminarda Beynəlxalq Qızıl Xaç komitəsinin Azərbaycan və Gürcüstan nümayəndələri və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyanın Gürcüstan nümayəndəliyinin əməkdaşları, Gürcüstan və Ermənistanın Milli cəmiyyətlərinin müvafiq əməkdaşları da iştirak edirdilər. 3 gün davam edən seminarda fəlakətlərə cavabvermə planında axtarış və ailə əlaqələrinin bərpası məsələlrinin öz əksini tapmasının vacibliyi vurğulanmışdır.
- 2008-2010-cu illər üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətlərinə dair Strateji planın hazırlanmasına aid Azərbaycan Qızıl Aypara Cəmiyyətinin komitə sədrləri, region mərkəzlərinin koordinatorları və eləcə də tərəfdaşlarla görüşlər və müvafiq müzakirələr aparılmışlır.
- FHHC şöbəsinin setor rəhbəri Rafael Həsənov 21-27 Oktyabr tarixlərində Türkiyənin Ankara şəhərində Amerika Qızıl Xaç Cəmiyyətinin dəstəyi və Beynəlxalq Federasiyanın və Türkiyə Qızıl Ay Cəmiyyətinin təşkilatçılığı ilə Yardımlar üzrə «Fövqəladə hallara Cavabvermə dəstəsi (Relief Emergency Response Unit, ERU)» treyninqində iştirak edərək bu dəstənin üzvü olmuşdur.
- FHHC şöbəsinin müdiri E. Səlimzadə 26 Noyabr- 13 Dekabr 2007 tarixlərində Türkiyənin Ankara və İstambul şəhərlərində Fövqəladə hallar zamanı qarşılıqlı əməkdaşlıq üzrə təlimlərdə iştirak etmişdir.

## Müxtəlif fəlakətlərdən zərərçəkmiş zavallı insanlara humanitar yardımlar üzrə:

- 2007-ci il ərzində Az.QAC tərəfindən respublika üzrə müxtəlif fəlakətlərdən zərər çəkmiş 295 nəfərdən ibarət 63 ailəyə humanitar yardım göstərilmişdir. Bunlar: yataq ləvazimatları, gigiyenik ləvazimatlar, mətbəx ləvazimatları və digər məişət əşyalarıdır.

| № | Reg. Mərkəz | Ailələrin sayı | Neçə nəfər | Məbləğ | Mənbə |
|---|---|---|---|---|---|
| 1 | **Bakı Mərkəzi anbar** | 23 | 117 | 8805,45 | Az.QAC |
| 2 | **Mingəçevir** | 18 | 61 | 4207,86 | Az.QAC |
| 3 | **Lənkəran** | 6 | 41 | 1323,31 | Az.QAC |
| 4 | **Gəncə** | 9 | 39 | 1880,60 | Az.QAC |
| 5 | **Sabirabad** | 7 | 37 | 1977,60 | Az.QAC |
| | | *63* | *295* | *18194,82* | |

**Nailiyyətlər**

- Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında bağlanmış memoranduma əsasən sıx əməkdaşlıq əlaqələrin qurulması məqsədilə işçi qrupu yaradılmışdır. Bu Cəmiyyətimiz üçün gələcəkdə Fövqəladə Hallara effetiv cavabvermə və digər müvafiq təşkilatlarla koordinasiya işini əhəmiyyətli dərəcədə asanlaşdırmışdır.
- 105 MKD üzvü «Ehtiyacların qiymətləndirilməsi», «Fəlakət yardımları zamanı davranış qaydaları», «Qızıl Xaç və Qızıl Aypara üçün fəlakət yardımları zamanı prinsip və qaydalar», «Fəlakətin İdarə edilməsi və Fəlakətin İdarə edilməsində termin və anlayışlar» haqqında təlimlər almışlar.
- Milli səviyyədə fəlakətlərə cavabvermə imkanlarını artırmaq məqsədilə işçi və könüllülərdən ibarət 24 nəfər müvafiq təlim almışlar.
- Mərkəzi anbarda malların müəyyən hissəsinin səliqəli yığılması üçün rəflər alınmış və quraşdırılmışdır.
- FHHC şöbəsinin sektor rəhbəri Rafael Həsənov 21-27 Oktyabr tarixlərində Türkiyənin Ankara şəhərində Amerika Qızıl Xaç Cəmiyyətinin dəstəyi, Beynəlxalq Federasiyanın və Türkiyə Qızıl Ay Cəmiyyətinin təşkilatçılığı ilə Yardımlar üzrə Fövqəladə hallara Cavabvermə dəstəsi (Relief Emergency Response Unit, ERU) treyninqində iştirak edərək bu dəstənin üzvü olmuşdur.
- FHHC şöbəsinin müdiri E. Səlimzadə 26 Noyabr- 13 Dekabr 2007 tarixlərində Türkiyənin Ankara və İstanbul şəhərlərində Fövqəladə hallar zamanı regional iş birliyi sahəsində fəlakətlərə cavabvermə layihəsi üzrə təlimlərdə iştirak etmişdir.

**Problemlər**

- Fövqəladə hallara cavabvemə üçün planın tamamlanmaması
- Fəlakətlərin idarə edilməsi üçün əməkdaşların az olması
- Böyük miqyaslı fəlakətlərə hazırlıq məqsədilə ticarət təşkilatları və nəqliyyat təşkilatları ilə qabaqcadan razılaşma müqavilələrinin olmaması
- Mobil Könüllü Dəstələrin üzvlərinin yenilənməsi

## Sağlamlıq və Qayğı

### Məqsəd: Sağlamlıq qrupunun fəaliyyəti sayəsində, əhalinin sağlamlıqla bağlı maariflənməsi.

Son zamanlar Ümumdünya Səhiyyə Təşkilatı dünyada Quş qripi, Vərəm, İİV/QİÇ, malyariya, narkomaniya, alkoqolizm, psixoloji pozğunluqlar, yolxucu və onkoloji xəstəliklərin nəinki müalicəsi, həmçinin onların profilaktikasına da böyük diqqət yetirir. Bununla əlaqədar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin

fəaliyyətlərindən biri olan əhali arasında geniş səhiyyə maarifi işinin aparılması mühüm yer tutur ki, Milli Cəmiyyət tərəfindən Bakı, Sumqayıt, Gəncə, Lənkaran, Mingəçevir Regional Mərkəzləri və Ağdam, Füzuli, Ağcəbədi, Xanlar, Qazax, Samux rayon komitələrindən təlimatlandırılmış könüllü sağlamlıq işçiləri və tibb bacıları fəaliyyətlərini davam etdirərək, icmalarla əməkdaşlıq şəraitində əhalinin tibbi biliklərinin artırılması sahəsində təhlükəli olan Quş qripi, Vərəm, İİV/QİÇ, malyariya, narkomaniya, alkoqolizm və s. kimi xəstəliklərin yayılmasının qarşısının alınması, içtimai səhiyyənin inkişafı üçün əsas şərtlərdən biri olan əhəmiyyətli səhiyyə maarifi işini həyata keçirmişlər.

**Fəaliyyətlər**: Fəaliyyət planına əsasən Bakıda, Sumqayıtda, Sabirabadda, Lənkaranda, Mingəçevirdə və Gəncədə təlimatlandırılmış 71 nəfər sağlamlıq işçiləri və qaçqın düşərgələrində fəaliyyət göstərən 6 nəfər tibb bacıları fəaliyyət planına əsasən icmalarda səhiyyə maarifi işini davam etdirmişlər.

2007-ci ildə könüllü sağlamlıq işçiləri və tibb bacıları tərəfindən icmaya əsaslanan səhiyyə maarifi fəaliyyəti (əhali arasında sağlamlıqla bağlı sorğuların aparılması, təlim-görüşlərinin və tədbirlərin təşkili) nəticəsində Quş qripi, İİV/QİÇS, malyariya, Süd vəzi xərçəngi, düzgün qidalanma, infeksion xəstəliklər və bu kimi mövzulara aid 10,523 nəfər maarifləndirilmişdir.

| **Mövzunun adı** | **Cəlb olunanların sayı** |
|---|---|
| Ailə planlaşdırılması, HİV/AİDS | 3897 |
| Qidalanma | 336 |
| Şəxsi gigiyena və sanitariya | 1196 |
| İnfeksion xəstəliklər (malyariya, vərəm) | 905 |
| Quş qripi | 1842 |
| Ətraf mühit və sağlamlıq | 1895 |
| Daxili xəstəliklər (onkoloji) | 452 |
| **Ümumi** | 10523 |

Yanvar ayında Respublikamızda «Quş qripi»-nin yayılma ehtimalı təkrar olduğundan, «Sağlamlıq və qayğı» şöbəsinin işçiləri bu yonümdə bir çox işlər aparmışdır. Keçən ildə olduğu kimi YUNİCEF təşkilatı, Səhiyyə Nazirliyinin verdiyi əmrə görə Quş qripinə dair maarifləndirilmə fəaliyyətlərinin koordinasiya edən bir qurum kimi işini davam etdirmişdir. Bununla belə yanvar ayının 30-da müxtəlif təşkilatlarla birgə müzakirələr aparıb əhali arasında xəbərdarlıq işlərini həyata keçirmişdir.

Bakı, Lənkaran, Sabirabad, Gəncə şəhərlərində «7 **Aprel - Ümumdünya Sağlamlıq Günü»nə** həsr edilmiş kompaniya zamanı 50 nəfər könüllü sağlamlıq işçiləri tərəfindən 1000 nəfər əhali arasında aparılan sorğuların təhlili göstərdi ki, son illər ərzində insan sağlamlığına təsir edən amillərdən respondentlər daha çox ətraf mühitin çirklənməsi kimi amilini (27,3% ) (Cəd.1), eyni zamanda vərəm 15,4% və onkoloji 15,2% xəstəliklərin daha çox yayılmasını da qeyd etmişdirlər (Cəd.2)

## İnsan sağlamlığına təsir edən amillər

(Cəd.1)

| **Cavablar** | **Respondentlərin sayı** | **Faiz %** |
|---|---|---|

| | | |
|---|---|---|
| Ətraf mühit | 273 | 27,3 % |
| Stress (əsəbilik) | 209 | 20,9 % |
| Maddi durumunun aşağı olması | 155 | 15,5 % |
| Ailə münasibətləri | 45 | 4,5 % |
| İş münasibətləri | 21 | 2,1 % |
| Düzgün qidalanma | 62 | 6,2 % |
| Aktiv hərəkət | 21 | 2,1 % |
| Mobil telefonlar | 214 | 21,4 % |
| Cəmi | 1000 | 100,0 % |

## Son illər ərzində yaşadığınız ərazidə hansı xəstəliklər daha çox yayılmışdır?

(Cəd.2)

| **Cavablar** | **Nəfər respondent** | **Faiz %** |
|---|---|---|
| Vərəm | 154 | 15,4 % |
| Malyariya | 158 | 15,8 % |
| Onkoloji xəstəliklər | 152 | 15,2 % |
| İrsi xəstəliklər | 58 | 5,8 % |
| Qızılca | 175 | 17,5 % |
| Diqərləri | 303 | 30,3 % |
| Cəmi | 1000 | 100,0 % |

Qədəbəy rayonun Saratovka kəndinin orta məktəbində Sağlam həyat tərzi mövzusunda bir günlük təlim keçirilmişdir. Təlimin sonunda iştirakçılara hədiyyələr paylanmışdır (sabun və əl dəsmalı).

Mart ayının 26-27-də Bakı, Gəncə RK 21 nəfər könüllü (onlardan 5 nəfər yeni könüllü sağlamlıq işçisidir) və Sabirabadda yerləşən qaçqın duşərgəsində fəaliyyət göstərən 6 nəfər tibb bacıları üçün tibbi biliklərin artırılması məqsədi ilə təkrar «İcmaya əsaslanan səhiyyə» adlı təlim keçirilmişdir.

24 **mart Vərmlə Mübarizə Gününə** həsr edilmiş tədbirlər müxtəlif təşkilat və tədris ocaqlarında keçirilmişdir. Belə ki, kampaniya çərçivəsində «Ağciyər xəstəliklər» institutunda müalicə alan xəstə uşaqlar üçün AzQAC-nin könüllü sağlamlıq işçiləri tərəfindən şənlik proqramı təşkil olunmuşdur. Tədbirin sonunda xəstə uşaqlara rəngli qələm və rəsm albomları təqdim edilmişdir. 88 saylı orta məktəbdə vərəmə aid maarifləndirmə yönümlü görüş keçirilmişdir.

Hər il Azərbaycan Qızıl Aypara Cəmiyyətinin «İcmada sağlamlıq» proqramı çərçivəsində «24 Mart –Ümumdünya Vərəmlə Mübarizə Günü», «7 Aprel- Sağlamlıq Günü», «31 May – Tütün Əleyhinə Günü», «14 İyun - Ümumdünya Donor Günü», «10 Oktyabr –Ümumdünya Psixi Sağlamlıq Günü», «1 Dekabr – AİDS- lə Mübarizə Günü» və s. kimi kompaniyalar təşkil edilir. Kompaniyalarda əhali arasında geniş şəkildə informasiya materiallarının paylanılması, mütəxəssislər tərəfindən məruzələrin edilməsi, mətbuat konfranslarının, xəstələrə baş çəkmə və konsertlərin təşkili kimi tədbirlər nəzərdə tutulur.

Belə tədbirlərdən respublikada ilk dəfə olaraq, 10 Oktyabr 2004-cü ildə Ümumdünya Psixi Sağlamlıq Gününə həsr edilmiş kampaniyaının keçirilməsini qeyd etmək olar. Ümümdünya Səhiyyə Təşkilatı tərəfindən təşkil olunan «Fövqəladə hallara səhiyyə koordinasiyanın gücləndirilməsi» mövzusunda Milli Konfransda AzQAC-nin sağlamlıq və Fövqəladə Hallara Hazırlıq şöbəsinin əməkdaşları iştirak etmişlər. Tədbirdə AzQAC-nin Ümümdünya Səhiyyə Təşkilatı ilə birgə Fövqəladə Hallara Hazırlıq sahəsində əməkdaşlıq bir daha vurğulanmışdır.

2007-ci il 1 Dekabr Ümumdünya AİDS-lə mübarizə Günü»-nün keçirilməsi Bakıda fəaliyyət göstərən hökumət və QHT-la birgə tədbirlərin təşkil olunması üçün Respublika AİDS-la mübarizə mərkəzinin rəhbərliyi və koordinasiyası altında tədbirlər planı hazırlanıb, icra olunması müxtəlif təşkilatlar tərəfindən aparılmışdır. Bu kompaniya çərçivəsində Gənclər və İdman Nazirliyi müxtəlif idman növləri üzrə yarışlar təşkil etmişdir. Eyni zamanda Azərbaycan Tibb Universiteti, İqtisad Universiteti, Azərbaycan Universiteti, Slavyan Universiteti və s. kimi digər təhsi ocaqlarında AİDS xəstəliyinə aid tələbələrlə görüş və dəyirmi masa təşkil olunmuşdur.

1 Dekabrda Azərbaycan Qızıl Aypara Cəmiyyəti və AİDS-lə mübarizə içtimai birliyinin əməkdaşları və könüllüləri Bakı, Sumqayıt, Gəncə, və Lənkaranda əhali arasında AİDS haqqında maarifləndirmə işlərini təşkil etmişdirlər. Şəxriyar adına mədəniyyət sarayında konsert proqramı təşkil olunmuşdur. AzQAC-nin əməkdaşları və könüllüləri tədbirlərdə fəal iştirak etmişlər. Bakıda keçirilən tədbirlərdə AzQAC-nin 1500 informasiya materialları və iştirakçılara 500 **ədəd**. qırmızı lentlər paylanılmışdır. 13 nəfər QİÇS-ə yoluxan körpələrə qida və gigiyenik dəstlər təqdim olunmuşdur. İl ərzində 13 RK İlk Yardım qutusu təqdim olunmuşdur.

İl ərzində könüllü sağlamlıq işçiləri tərəfindən aparılan Süd vəzi xərçəngi haqqında səhiyyə maarifi işinin nəticəsində, Nərimanov rayonunda yerləşən 4 saylı şəhər poliklinikasının nəzdində fəaliyyət göstərən Qadın sağlamlıq mərkəzinin mütəxəssisləri 30 nəfər qadının mərkəzə müraciət edib müayinədən keçməsini və onlardan 2 nəfərdə süd vəzisində dəyişikliyin olmasını qeyd etmişdir.

## AZƏRBAYCANDA QAN DONORLUĞUNUN İNKİŞAFI

«Sağlamlıq və qayğı» şöbəsi 2004-cü ildən başlayan, Norvec Qızıl Xaç Cəmiyyəti tərəfindən dəstəklənən Azərbaycanda «təmənnasız könüllü qan donorluğunun inkişafı» adlı layihəsini həyata keçirir.

2007-ci ildən bu layihə çərçivəsində könüllü təmənnasız qan donorlarının cəlb olunmasına dair fəaliyyət, yeni istiqamətdə, Klub -25-in yaradılması ilə davam olunmuşdur. Həmin klub sədr və 5 üzvdən ibarətdir. AzQAC-nin könüllü mütamadi qan donorları və adi könüllülər hər ay görüşlər keçirərək öz fəaliyyətlərini planlaşdırıb, müzakirə edəcəklər.

Klub-25-in əsas məqsədi 18 yaşdan başlayaraq gənc yaş dövründə 25 dəfə qan vermək məqsədilə (Azərbaycan Respublikasının qanununa uyğun olaraq gənc 30 yaşadək sayılır) gənclər arasında «sağlam həyat tərzi»-nin təbliğatına üstünlük verərək, təhlükəsiz qanın olmasına nail olmağa fəaliyyətlərini gücləndirməklə, qan donorluğunun təbliğatı və mütamadi gənc könüllü təmənnasız qan donorlarının cəlb olunması, eyni zamanda klubun üzvlərinin sayının artırılmasına nail olmaqdır.

2007-ci il ərzində Gəncə, Mingəçevir, Sabirabad, Sumqayıtda 76 nəfər könüllü və Bakıda Klub-25-in üzvləri tərəfindən 3151 nəfər əhali arasında könüllü təmənnasız qan donorluq haqqında maarifləndirmə işlərini aparmışdır.

Mart ayında sağlamlıq və qayğı şöbəsi Abşeron RK ilə birgə Qafqaz Universitetində 10 **mart Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranması Günü**-nə həsr olunmuş geniş qanvermə aksiyası təşkil etmişdir. Ümumi olaraq 39 nəfər könüllü təmənnasız qan vermişdir.

17 aprel Ümumdünya Hemafiliya Gününə həsr olunmuş tədbirdə sağlamlıq və qayğı şöbəsi Akademik M.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının hematologiya şöbəsində müalicə alan hemafiliyalı uşaqlar üçün şənlik proqramı hazırlamış, uşaqlara şirniyyat süfrəsi təşkil etmişlər.

22 may tarixdə sağlamlıq işçiləri Şamaxı rayonunda 14 iyun Qan donorluq Gününə həsr olunmuş tədbir keçirmişdir. Bu tədbirdə 65 illik yubileylə bağlı mütəmadi qan donoru olan həkim qinekoloq

Abdulrazaqova Nəzakət xanıma Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təşəkkürnamə təqdim olunmuşdur.

**İyun ayı** ərzində Gəncə, Mingəçevir, Sabirabad, Sumqayıtda 76 nəfər könüllü 14 iyun «Ümümdünya Qan Donoru günü»nə həsr olunmuş bir sıra tədbirlər keçirilmişdir. İyun ayının 9-da Baksell şirkətinin əməkdaşları qanvermə aksiyasını təşkil etmişlər. Bu aksiyada 24 nəfər qan vermişdir. Onlara təşəkkürnamə və hədiyyələr təqdim olunmuşdur.

İyun ayın 13-də AzQAC-nın sağlamlıq və qayğı şöbəsinin əməkdaşları, Ümümdünya Səhiyyə Təşkilatının nümayəndəsi, İçtimai səhiyyə və islahatlar mərkəzinin rəhbəri və əməkdaşları 14 iyun «Ümümdünya Qan Donoru günü»nə həsr olunmuş dəyirmi masa təşkil etmişlər.

1) İyun ayının 13-də Bakının Milli Parkında könüllülər əhali arasında 14 iyun «Ümümdünya qan donoru günü»nə aid maarifləndirmə işlərini aparmışlar.

2) Minqəçevir və İmişli rayonlarında Qanvermə aksiyası keçirilmişdir . Mingəçevir royonunda 20 nəfər ,İmişli rayonunda isə 110 nəfər qan vermişdir .

3) İyunun 14-də «Ümümdünya Qan Donoru günü»nə həsr olunmuş rəsmi mərasim Ambassador mehmanhanasının konfrans zalında təşkil olunmuşdur. Tədbirdə 100 nəfər iştirak etmişdir. Tədbirə il ərzində qan verən şəxslər və qanvermə aksiyalarını təşkil edən təşkilatların nümayəndələri dəvət olunmuşdur. Onlara təşəkkürnamə və hədiyyələr təqdim olunmuşdur.

4) Azərbaycan Qızıl Aypara Cəmiyyəti və B.Ə.Eyvazov adına Hematologiya və Transfuzioloqiya İnstitutu qan donorluq sahəsində əməkdaşlığı davam etdirməyə qərara almışdır və həmin tədbirdə təşkilatlar arasında Anlaşma Memorandumu imzalanmışdır.

5) 14 iyunda Gəncə, Sumqayıt, Sabirabad, Mingəçevir rayonlarında Qan Donorluq Gününə həsr olunmuş tədbir keçirilmişdir

4 iyulda «Klub 25» in üzvləri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin gəncləri və könüllüləri ilə birgə qaçqın çeçen uşaqları üçün təşkil edilmiş yay düşərgəsinə baş çəkib, onlara sağlam həyat tərzi və qan donorluğu haqqında maarifləndirmə işləri aparmışdır. Görüş zamanı uşaqlarla qruplarda iş aparılmış, mövzuya aid rol oyunları göstərilmişdir. Uşaqlar bu tədbiri bəyənmiş və öz növbələrində məktəblərdə donorluq haqqında maarifləndirmə işlərini aparacaqlarına söz vermişlər. İl ərzində «Klub 25»-in üzvləri müntəzəm olaraq görüşlər təşkil etmiş gələcək fəaliyyətlər barədə müzakirələr etmişlər. Belə ki, avqust ayının 10-da Azərbaycanda fəaliyyət göstərən Gənclərlə iş aparan hökumət və qeyri-hökumət təşkilatları ilə görüş keçirilmişdir. Görüşdə, «Klub 25»-in könüllü və təmənnasız qan donorlarının təqdimatı və gələcəkdə birgə görülə bilən iş və fəaliyyətlərinin aparılması müzakirə olunmuşdur.

Dekabr ayının 10-da AzQAC-nin «Sağlamlıq və qayğı» şöbəsi Sabunçu rayon komitəsinin dəstəyi ilə «Sənaye- Pedaqoji» texnikumunda Qan donorluq aksiyası keçirmişdir. Aksiya 5 **Dekabr Beynəlxalq Könüllülər Gününə həsr edilmişdir**. Aksiyadan əvvəl, AzQAC-nin «Sağlamlıq və qayğı» şöbəsinin əməkdaşları texnikumun direktoru Orucov Vidadi və gənclər ilə iş aparan Məmmədova Aygün ilə birgə tələbələrlə görüş keçirmiş, onlara Azərbaycanda qan donorluğunun inkişafının vacib olduğunu vurğulamışlar.

Eyni zamanda Orucov Vidadi öz çıxışında AzQAC-nə öz dərin minnətdarlığını bildirərək gələcəkdə belə qan aksiyaların texnikumda mütəmadi olaraq keçirilməsinə dəstək olacağını qeyd etdi. Aksiya zamanı 35 nəfər könüllü-təmənnasız tələbə və müəllim heyəti qan verdilər. AzQAC-nin «Sağlamlıq və qayğı» şöbəsinin müdiri M.Qaraxanova və Sabunçu Rayon Komitəsinin sədri Elmira Məlikova ölkədə qan ehtiyatlarının qıt olduğu bir vaxtda qanvermə aksiyasının keçirməsində təşəbbüs göstərdiyinə görə «Sənaye Pedaqoji» texnikumunun rəhbərliyinə öz minnətdarlığını bildirdi.

İl ərzində AzQAC Azərbaycan Talassemiya Assosiasiyası ilə birgə müxtəlif təşkilat və tədris ocaqlarında ( Gömrük, Vergilər Nazirliyi, Baksell, Texniki Universitet, Polis Akademiyası, Pedaqoji Universitet və s.) qanvermə aksiyaları təşkil etmişdir. Qanvermə aksiyaları zamanı 1513 **nəfər** könüllü təmənnasız qan vermişdir.

**<u>Azadlığa buraxılan vərəmli məhkumların davamlı müalicəsinə nəzarət</u>**

2007-cı ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti vərəmin yayılmasının qarşısını almaq, azadlığa buraxılan vərəmli məhkumların vərəmə qarşı zavallığını azatmaq və eyni zamanda onların vərəm xəstəliyindən sağalması üçün «Azadlığa buraxılan vərəmli məhkumların davamlı müalicəsinə nəzarət» adlı pilot layihəni davam etdirmişdir. Proqram Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə aparılmışdır. Proqram çərçivəsində Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən təlimatlandırılmış AzQAC-nin 6 nəfər tibb bacısı Bakının Nərimanov, Sabunçu, Yasamal, Qaradaq, Binəqədi, Əzizbəyov rayonlarında yaşayan azadlığa buraxılan məhkumların vərəm xəstəliyinə qarşı davamlı DOTS müalicəsinə nəzarət etmişdirlər. Proqramda

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən Milli Vərəm Proqramının Ağ ciyər xəstəlikləri İnstitututun mütəxəssisləri iştirak etmişlər. Tibb bacıların fəaliyyəti yerli vərəm dispanserlərində geydiyyata düşməyən xəstələrin tapılmasında yardımçı olmaq, ayrılan dərmanları əldə edib xəstələrə çatdırmaq, dərmanların qəbuluna nəzarət etmək, xəstələr və onların ailə üzvləri arasında səhiyyə maarif işinin, eyni zamanda xəstələrə dərmanların qəbul edilməsində psixoloji hazır olması istiqamətində psixoloq-mütəxəssisləri cəlb etmək və məsləhətlərin verilməsindən ibarətdir.

Beynəlxalq Qızıl Xaç Komitəsinin mütəxəssisləri ilə birgə mütamadi olaraq tibb bacılarının fəaliyyətinin monitorinqi keçirilirdi. Bununla yanaşı xəstələrə baş çəkib, onlara gigiyenik və qida dəstləri paylanılırdı.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən aparılan Milli Vərəm Proqramının, Ağ ciyər xəstəlikləri İnstitutunun mütəxəssisləri ilə birgə əməkdaşlıq sahəsində mütamadi görüşlər və tibb bacılarının fəaliyyətində meydana çıxan problemlər ətrafında müzakirələr aparılırdı.

Proqram çərçivəsində 2006-2007 –ci illər ərzində 66 nəfər xəstə əhatə olunmuşdur ki, onlardan 34 nəfər DOTS müalicəsini bitirmişdir. Digər xəstələr isə müalicəni davam etdirməkdədirlər.

## İCMAYA ƏSASLANAN İLK YARDIM

«İcmaya əsaslanan İlk yardım» proqramı çərçivəsində il ərzində Bakı, Sabirabad, Mingəçevir, Lənkaran, Gəncə, Sumqayıt RM və Bakı, Ağdam, Füzuli RK –dən 22 **nəfər** İlk yardım təlimatlandırılmış könüllülər ( 10 nəfər –Bakı, 5 nəfər Füzuli, Ağdamdan yeni İlk yardım dəstəsinin üzvləridir, 7 nəfər isə RM-də ötən illərdə təlimatlandırılmış könüllülərdir) 1440 nəfər əhali arasında İlk Yardım vərdişləri haqqında maarifləndirmə işləri aparılmışdır.

Aprel ayında Bakı,Mingəçevir, Sumqait RM-də 45 nəfər könüllü üçün ilk yardım təlimi keçirilmiş və vərdişlər öyrədilmişdir. Fövqəladə Hallar Nazirliyi tərəfindən təşkil olunmuş Mülki Müdafiə Gününə həsr edilmiş kampaniyada AzQAC-nin İlk Yardım proqramında fəaliyyət göstərən könüllülər ilk yardım vərdişlərini nümayiş etmişdir.

23-29 **aprel BMT, Qızıl Xaç və Qızıl Aypara Federasiyası tərəfindən təşkil olunmuş** «Təhlükəsiz yol həftəliyi» günü ilə bağlı Sabunçu RK-nın Yataqxanasında İlk Yardım dəstəsinin üzvləri və sağlamlıq işçiləri tərəfindən 50 nəfər uşaq üçün yol hərəkəti və ilk yardım vərdişləri haqqında təlim-məşğələ təşkil olunmuşdur. Təlimdən sonra uşaqlar ilk yardıma aid praktiki məşğələlər nümayiş etdirmişlər.

May ayının 1-2-də «**SOS Uşaq kəndləri» Azərbaycan Asossiasiyasında** 16 saatlıq ilk yardım təlimi keçirilmiş,iştirakçılara sertifikat verilmişdir. May ayının 5-də Milli Parkda 8 **May Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Hərəkatı Günün**ə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə AzQAC-nin rəhbərliyi, əməkdaşları və könüllüləri, **Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycan nümayyəndəliyinin əməkdaşları, Beynəlxalq Qızıl Xaç Komitəsinin** nümayyəndələri iştirak etmişdir. AzQAC-nin yeni yaradılmış 10 nəfərdən ibarət **İlk Yardım dəstəsinin könüllüləri Milli Parkda dincələn əhaliyə** ilk yardım vərdişləri nümaiş etdirmişdirlər. Tədbirdə iştirakçılar tərəfindən verilən suallar İlk Yardım koordinatoru tərəfindən cavablandırılmışdır.

May ayının 25-də «ROTARY» gənclər təşkilatında ilk yardım təlimilə bağlı görüş keçirilmişdir, iştirakçılara ilk yardım vərdişləri göstərilmişdir.

İyul ayında Novxanı kəndində AzQAC-nin Gənclər Komitəsi tərəfindən Çeçen qaçqın uşaqlar üçün təşkil olunmuş düşərgədə **AzQAC-nin yeni yaradılmış** 10 **nəfərdən ibarət İlk Yardım dəstəsinin könüllüləri** (üzvləri) ilə birlikdə ilk yardım üzrə maarifləndirmə işi aparılmış və ilk yardım vərdişlərinə aid praktik məşğələlər keçirmişlər.

Sentyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti «Sağlamlıq və qayğı» şöbəsinin 8 Sentyabr - Beynəlxalq İlk Yardım gününə həsr edilmiş kompaniya keçirmişdir. Günün şuarına «Fərq qoymadan ilk yardım keçirməklə icmanın sağlamlığına və təhlükəsizliyinə nail olaq!» əsaslanaraq bir neçə tədbirlər keçirilmişdir. Belə ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllü İlk Yardım dəstəsinin 4 nəfər üzvü sentyabr ayının 4-dən 7-dək «SOS Uşaq Kəndləri –Azərbaycan» Asosasiyasının SOS - Uşaq Kəndində yaşayan 40 nəfər uşaqlarla İlk yardım vərdişlərinə aid təlimlər keçirmişlər. 40 nəfər uşaq 4 qrupa bölünmüşdür və AzQAC-nin İlk Yardım təlimatçısı hər qrupun lideri olaraq, onlarla İlk Yardımın aparılmasına dair vərdişləri öyrədib və rol oyunları, sujetlər hazırlamışdırlar.

Sentyabr ayının 8-də isə «Ümumdünya ilk Yardım Günü»nə həsr edilmiş kompaniyanın yekununda Şixov çimərliyində təlimatlandırılmış SOS - Uşaq Kəndinin uşaqlardan ibarət komandaları öz biliklərini nümayiş etdirmişdirlər. Kompaniya üçün 4m x 1,20s m ölçüsündə 1 ədəd Banner və İlk Yardıma aid 2000 ədəd informasiya materialları tərtib edilmişdir. Eyni zamanda dəniz kənarında istirahət edən insanlar arasında İlk Yardıma aid informasiya materialları könüllər tərəfindən paylanılmışdır və tədbirə cəlb olunmuşdur. Onların İlk Yardıma aid verilən suallar İlk Yardım proqramının koordinatoru tərəfindən nümayiş edərək, cavablandırılmışdır. AzQAC-nin əməkdaşları və könüllüləri xüsusi qeyimlə (üzərində İlk Yardım sözləri olan ağ rəngli mayka və papaq/ təmin edilmişdir.

İl ərzində AzQAC **ödənişli 16 saatlıq** İlk Yardım təlimlərini təşkil etmişdir:

«Amma» şirkətinin- 9 nəfər, «Binəqədi OİL» şirkətinin -3 nəfər və «Trust» MMS-nin -23 nəfər, «RİQS HOME MMC»-də – 6 nəfər üçün 16 saatlıq ilk yardım təlimi keçirilmiş, iştirakçılara ilk yardım vərdişləri öyrədilmiş və sertifikat verilmişdir. İştirakçılara Avropa Sertifikatı təqdim olunmuşdur.

Nailiyyətlər:

- 83 **nəfər** təlimatlandırılmış könüllü sağlamlıq işçisi və tibb bacısı əhali arasında Quş qripi, İİV/QİÇS, malyariya, vərəm, süd vəzi xərçəngi, düzgün qidalanma, infeksion xəstəliklər haqqında maarifləndirilmə işlərinin aparması nəticəsində 10523 nəfər insan sağlamlığı ilə bağlı biliklərini artırmışdır. Onlardan 50% qaçqın və məcburi köçkünlər təşkil edir.
- 30 **nəfər** qadının süd vəzisinin müayinəsindən keçmişdir. 2 nəfər qadın süd vəzisində problemin olmasından mütəxəssis tərəfindən nəzarət edilmişdir.
- 76 **nəfər** qan donorluğuna aid təlimatlandırılmış könüllü tərəfindən 3151 nəfər insan qan donorluq haqqında maarifləndirilmişdir.
- 1513 nəfər könüllü təmənnasız qan donoru olmuşdur. Onlardan mütamadi donorların sayı 100-**ə** çatmışdır;
- 15 **nəfərdən** ibarət (Bakı-10, Ağdam, Füzuli - 5 nəfər)
- İlk Yardım dəstəsi yaradılmışdır.
- 2 **İlk** Yardım praktiki məşğələ -simulyasiya təşkil olunmuşdur
- 41 **nəfər** üçün pullu İlk Yardım təlimi təşkil olunmuşdur
- 43 **nəfər** azadlığa buraxılan vərəmli məhkumlardan 29 nəfəri DOTS müalicəsini bitirmişdir, 14 nəfəri isə müalicəni davam etdirməkdədir.
- Respublika «Quş qripi ilə mübarizə» Milli planda əhalinin səfərbər olunması ilə bağlı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də rolu olmuşdur.
- 30 dekabrda Səhiyyə Nazirliyi ilə Əməkdaşlıq Memorandumu imzalanmışdır.

## HIV və AIDS

### MƏQSƏD

Yaşa uygun HİV/AİDS-lə bağlı bilikləri təmin etmək, gənclərə zəkalı qarar qəbul etməsində kömək, HİV/AİDS xəstəliyin qarşısını almaq üçün sağlamlıqla bağlı davranışları inkişaf etdirmək.

### FƏALİYYƏTLƏR

Yanvar ayı ərzində treynerlərimiz tərəfindən təhsil ocaqlarında HİV/AİDS sessiyaları həyata keçirilmişdir və nəticədə 1447 nəfərə maarifləndirmə işi aparılmışdır.

26-27 fevral tarixlərində Gəncə Regional Mərkəzinin rayon komitələrindən olan 24 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Könüllülər AİDS treynerləri qismində hazırlanmış və növbəti aydan başlayaraq fəaliyyətə başlayıb, müvafiq sessiyalar həyata keçirəcəklər. Ay ərzində 2124 nəfərə maarifləndirmə işi aparılmışdır.

Mart ayı ərzində treynerlərimiz tərəfindən təhsil ocaqlarında HİV/AİDS sessiyaları həyata keçirilmişdir və nəticədə 2659 nəfərə maarifləndirmə işi aparılmışdır.

07-09 aprel tarixdə AİDS-ə qarşı İctimai Birlik və İnformasiya şöbəsilə əməkdaşlıqda Lənkəran Regional Mərkəzdə Azərbaycan QAC-nin əməkdaşların, könüllülərin və AİDS-lə yaşayan insanların iştirakı ilə ümumilikdə 35 nəfər olaraq «Stiqma və diskriminasiyanı dayandıraq» mövzusunda piknik həyata

keçirilmişdir. Eyni zamanda keçən ay ərzində AİDS treynerləri qismində hazırlanmış könüllülər müvafiq sessiyalar həyata keçirərək, ay ərzində 2567 nəfərə maarifləndirmə işi aparılmışlar.

May ayı ərzində treynerlərimiz tərəfindən təhsil ocaqlarında HİV/AİDS sessiyaları həyata keçirilmişdir və nəticədə 3372 nəfərə maarifləndirmə işi aparılmışdır.

İyun ayı ərzində treynerlərimiz tərəfindən təhsil ocaqlarında HİV/AİDS sessiyaları həyata keçirilmişdir və nəticədə 2778 nəfərə maarifləndirmə işi aparılmışdır.

İyul ayı ərzində treynerlərimiz tərəfindən təhsil ocaqlarında HİV/AİDS sessiyaları həyata keçirilmişdir və nəticədə 3546 nəfərə maarifləndirmə işi aparılmışdır.

24-25 avqust tarixdə Mingəçevir Regional Mərkəzindən olan 24 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Könüllülər AİDS treynerləri qismində hazırlanmış və növbəti aydan başlayaraq fəaliyyətə başlayaraq, müvafiq sessiyalar həyata keçirmişlər. Ay ərzində 3522 nəfərə maarifləndirmə işi aparılmışdır.

13-19 sentyabr 2007-ci il tarixində Estoniyanın Tallinn şəhərində HİV/AİDS-ə və Vərəmə qarşı mübarizə Avropa Regional Şəbəkəsinin ənənəvi 11-ci görüşü həyata keçirilmişdir. Həmin görüşdə Milli Cəmiyyətimizdən 2 nəfər nümayəndə iştirak etmişdir. 25-26 sentyabr 2007-cı il tarixlərində Sabirabad Regional Mərkəzinin rayon komitələrindən olan 24 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Ay ərzində 3165 nəfərə maarifləndirmə işi aparılmışdır.

04-05 oktyabr 2007-ci il tarixlərində MİngəÇevir Regional Mərkəzinin rayon komitələrindən olan 24 nəfər könüllü və 25-26 oktyabr tarixdə Əlibayramlı rayon komitələsindən olan 24 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Ay ərzində 3222 nəfərə maarifləndirmə işi aparılmışdır.

12-13 noyabr tarixdə Lənkəran Regional Mərkəzinin rayon komitələrindən olan 25 nəfər könüllü, 15-16 noyabr tarixdə Gəncə Regional Mərkəzinin rayon komitələrindən olan 25 nəfər könüllü, 17-18 noyabr tarixdə Sabirabad Regional Mərkəzinin rayon komitələrindən olan 25 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Ay ərzində 3348 nəfərə maarifləndirmə işi aparılmışdır.

Hər il mütəmadi xarakter daşıyan tədbirlər keçirən Cəmiyyət 1 dekabr tarixlə bağlı bir sıra tədbirləri bu il də planlaşdıraraq həyata keçirildi. Bakı şəhərinin mərkəzi küçələrində AİDS biliklərinin yayılması məqsədilə, Qızıl Aypara emblemini daşıyan gödəkçələrdə və papaqlarda olan 70 könüllü HİV/AİDS aid müxtəlif buklet, broşur, kitabarası yaddaş vərəqi, yapışqan və şar paylamaqla yanaşı, şifahi olaraq da xəstəliyə yoluxma yolları barəsində maarifləndirmə işləri apardılar. Tədbirin ikinci hissəsinə uyğun olaraq Şəxriyar adına Mədəniyyət Mərkəzində incəsənət ustaların iştirakı ilə geniş konsert həyata keçirilmişdir. Bu cür tədbirlər Qızıl Aypara Cəmiyyətinin Mingəçevir, Sabirabad, Lənkəran, Sumqayıt, Gəncə Regional Mərkəzləri və digər rayonlarında yüzlərlə gənc könüllünün iştirakı ilə «AİDS-ə qarşı mübarizə» şüarı ilə kampaniyalar həyata keçirilmişdir.

Dekabr ayı ərzində 1 dekabr Ümumdünya AİDS-lə mübarizə günü münasibəti ilə 7 Regional Mərkəzdə müxtəlif növ fəaliyyətlər keçirilmişdir (konsert, diskoteka, yürüş, sessiya, rəsm müsabiqəsi, viktorina və s.) Sessiyalarda HİV/AİDS xəstəliyinin tarixi və yayılması haqda statistik mə'lumatlar verildi. HİV və AİDS nə deməkdir terminlər və təriflərdən söhbət açıldı. Sonra immun sistemi haqqında ümumi anlayış, HİV infeksiyasının əlamətləri, AİDS xəstəliyinin aşkar edilməsi, kimlər yoluxa bilər, ötürülmə yolları və ötürülmənin qarşısının alınması, HİV–in insan orqanizminə təsiri haqqında geniş mə'lumatlar verildi. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çəkilmiş «Özünü qoru» videoklipi nümayiş etdirildi. Daha sonra sessiya iştirakçıları qruplara bölündü və interaktiv oyunlar və onların müzakirəsi başlanıldı. İştirakçılar bu xəstəliyə yoluxma yollarını və ondan qorunma yollarını öz rəsmlərində nümayiş etdirdi və hər rəsmin prezentasiyası keçirildi. Həmçinin AİDS- lə mübarizə günü və qırmızı lent mövzusunda danışıldı,

HİV test və HİV/AİDS zamanı ilk yardım mövzusunda müzakirələr keçirildi, HİV/AİDS xəstəliyi ilə yaşayan insanlar və bu insanlara qarşı diskriminasiyanın azaldılması haqqında danışıldı, müxtəlif oyunlar və sorğular keçirildi. Sessiyalarda Azərbaycanda epidemiya ilə bağlı yaranmış vəziyyətdən, yoluxmuş insanların statistik məlumatlar barəsində müzakirələr aparıldı. Yerlərdə təlim keçmiş treynerlər hər ay olduğu kimi həmyaşıddan – həmyaşıda layihəsi çərçivəsində müxtəlif təhsil ocaqlarında seminarlar həyata keçirmişlər. Ay ərzində 4744 nəfərə maarifləndirmə işi aparılmışdır.

*Treyninq və sessiyaların proqramı:*

Treyninq və sessiyalarda HİV/AİDS xəstəliyinin tarixi və dünyada qlobal yayılması haqda statistik mə'lumatlar, HİV və AİDS terminlər və təriflərdən, immun sistemi barəsində ümumi anlayış, AİDS xəstəliyinin aşkar edilməsi, HİV infeksiyasının ilkin əlamətləri, kimlərin həmin virusa yoluxa bilməsi, HİV virusun ötürülmə yolları və ötürülmənin qarşısının alınması, HİV virusunun insan orqanizminə nə kimi təsiri haqqında geniş məlumatlar verildi, diskusiyalar olundu. Sonra treyninq iştirakçıları qruplara bölünərək interaktiv oyunlara cəlb olundular. İştirakçılar bu xəstəliyə yoluxma yollarını və ondan qorunma yollarını öz rəsmlərində nümayiş etdirdi və hər rəsmin prezentasiyası keçirildi. Eyni zamanda AİDS- lə mübarizə günü və qırmızı lent mövzusunda danışıldı, HİV test və HİV/AİDS zamanı ilk yardım mövzusunda müzakirələr keçirildi, HİV/AİDS xəstəliyi ilə yaşayan insanlar və bu insanlara qarşı diskriminasiyanın azaldılması haqqında söhbət açıldı, müxtəlif oyunlar və sorğular həyata keçirildi. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çəkilmiş «Özünü qoru» videoklipi iştirakçılara nümayiş etdirildi. Treyninqdə Azərbaycanda epidemiya ilə bağlı yaranmış vəziyyətdən, yoluxmuş insanların rəsmi və qeyri rəsmi statistik məlumatlar barəsində, treynerlərdən asılı olan fəaliyyətlərdən müzakirələr aparıldı. Treyninqin sonunda treyninqin qiymətləndirilməsi keçirilmişdir.

*Kampaniyaların proqramı:*

Əvvəl 2 saatlıq HİV/AİDS haqqında informasiya xarakterli maarifləndirmə işləri aparılmışdır. Keçirilən kampaniyalar region kampaniyaları idi. Bütün Regional Mərkəzlərində regiona daxil olan rayon komitələrdən könüllülər iştirak etmişlər. Hər regionda kampaniyalar könüllülərin yürüşü ilə başlanmış, daha sonra isə əvvəlcədən təyin olunmuş ərazilərdə «Gənclər AİDS-in əleyhinədir» adlı bukletlərin və tibbi qoruyucu vasitələrinin paylanılması ilə davam etdirilmişdir. Daha sonra mövzuya aid rəsm müsabiqəsi və viktorinalar (sual-cavab) həyata keçirilmişdir. Müsabiqədən sonra rəsmlərin sərqisi keçirilmişdir. Həm rəsm müsabiqəsinin və eyni zamanda viktorinanın qalibləri kiçik hədiyyələr ilə Az.QAC-ti tərəfindən mükafatlandırılmışlar. Kampaniyanın iş planına uyğun olaraq Az QAC tərəfindən çəkilmiş «Özünü qoru» adlı AİDS video roliki nümaiş etdirildi. Bütün gün ərzində davam etmiş kampaniya geniş konsert proqramı və diskoteka ilə yekunlaşmışdır. Respublika ərazisində fəaliyyət göstərən bir çox QHT-rının əməkdaşları aksiyaya qoşulublar.

**NAİLİYYƏTLƏR**

İl ərzində proqram çərçivəsində 195 treyner hazırlanıb.
Kampaniyalarda ümumilikdə 5000-**dən** artıq insan iştirak edirdi.
Sessiyalarda il ərzində 36494 nəfər maarifləndirilmişdir.

| N | Ay | Maariflənlərin sayı (Nəfər) | Kişi | Qadın |
|---|---|---|---|---|
| 1. | Yanvar | 1447 | 730 | 717 |
| 2. | Fevral | 2124 | 1065 | 1059 |
| 3. | Mart | 2659 | 1411 | 1248 |
| 4. | Aprel | 2567 | 1350 | 1217 |
| 5. | May | 3372 | 1690 | 1682 |
| 6. | İyun | 2778 | 1391 | 1387 |
| 7. | İyul | 3546 | 1780 | 1766 |
| 8. | Avqust | 3522 | 1765 | 1757 |
| 9. | Sentyabr | 3165 | 1650 | 1515 |
| 10. | Oktyabr | 3222 | 1617 | 1605 |
| 11. | Noyabr | 3348 | 1685 | 1653 |
| 12. | Dekabr | 4744 | 2470 | 2274 |









## HUMANİTAR DƏYƏRLƏR

- İl ərzində Qızıl Ayparanın Sumqayıt, Sabirabad, Lənkəran və Mingəçevir Regional Mərkəzlərində və İsmayıllı, Zaqatala Rayon Komitələrində fəaliyyət göstərən 82 nəfər könüllü üçün humanitar dəyərlər üzrə seminarlar keçirilmişdir.

- Hər il olduğu kimi bu ildə də Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC) 8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) yaradılması gününə həsr olunmuş bir sıra tədbirlər həyata keçirmişdir:

Tədbirlərin ümumi məqsədi BQX/QAH-nın tərkib hissəsi kimi, Hərəkatın (Qızıl Xaç və Qızıl Aypara Hərəkatnın) və eyni zamanda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin hal-hazırda gördükləri fəaliyyətlər barəsində ictimaiyyəti məlumatlandırmaq olmuşdur. Bu il BQX/QAH-nın yarandılası günü «Humanizmə Doğru Birlikdə» şüarı altında keçirilmişdir.

2007-ci il mayın 5-də Milli parkda keçirilən tədbirdə, Fövqəladə hallar və təbii fəlakətlər zamanı zərərçəkmiş insanlara ilk yardımın göstərilməsi və onlar üçün müvəqqəti çadırların necə qurulması istiqamətində təlim nümayiş etdirilmişdir. Eyni zamanda İlk yardım vərdişlərinin aşılanması zamanı tamaşaçılar tərəfindən müxtəlif suallar verilmiş, insanların maarifləndirilməsi məqsədilə təşkil olunan ilk yardım treyninqi səhnəcik formasında nümayiş etdirilmişdir. Qeyd etmək istəyirik ki, İlk yardım səhnəciyinin hazırlanmasında və nümayiş olunmasında Qızıl Aypara Cəmiyyəti könüllülərinin böyuk rolu olmuşdur. Könüllülər səhnəcikdə ilk yardıma ehtiyacı olan zərər çəkmiş rollunda iştirak edərək, tamaşaçılarda ilk yardım təliminə daha da böyük maraq oyatmışlar.

Növbəti tədbir 2007-ci il mayın 7-də «Jazz center» mərkəzində həyata keçirilrmişdir. Təşkil olunan tədbirdə özündə BQX/QAH-nın tarixi və fəaliyyətlərini əks etdirən video çarx və bu sahədə prezentasiya nümayiş etdirilmişdir. Tədbirdə çıxış edən işçilər tərəfindən də çıxışlar olmuş, tədbir işirakçılarına ətraflı məlumatlar verilmişdir. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin başçısı Martin Amaşer BQXK-nin missiyası və həyata keçirdikləri fəaliyyətlər barəsində danışaraq, 8 may BQX/QAH-nın yaranması günü munasibətilə Nümayəndəlik adından öz səmimi təbriklərini tədbir işirakçılarına çatdırmışdır.

AzQAC-in Prezidenti, Milli Məclisin deputatı cənab Novruz Aslanov çıxışında Hərəkatın təsis olunması günü münasibətilə ilk növbədə BQX/QAH-nın tərkib hissəsi olan BQXK-nı, BQX/QACF və eyni zamanda Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərini ürəkdən təbrik edərək, AzQAC-ın gördüyü işlər barədə ətraflı danışmışdır.

Bəzi dövlət, qeyri-dövlət rəsmiləri, səfirlər, diplomatik missiyaların nümayəndələri, beynəlxalq və yerli qurumlardan nümayəndələr Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü ilə əlaqədar düzəmlənən tədbirə qatılmışlar.

Eyni zamanda tədbirlərdə Qızıl Aypara Cəmiyyətinin çoxşaxəli fəaliyyətini özündə əks etdirən «Qızıl Aypara guşəsi» tədbirə xüsusi yaraşıq verirdi. Guşədə Cəmiyyətin həyata keçirdiyi müxtəlif proqramlar haqqında məlumatlar öz əksini tapmışdır. İctimaiyyətə daha ətraflı məlumat vermək üçün yayım işləri gücləndirilərək, Cəmiyyətin uniformalarında yayım könüllüləri tərəfindən «Sağlamlıq və qayğı», «Gənclər və könüllülər», «Axtarış xidməti», «Fövqəladə hallara Hazırlıq və Cavabvermə», «İcmaların inkişafı», «Humanitar dəyərlər», «HİV/AİDS», «Fandreyzinq və gəlir gətirmə» proqramlarına dair məlumatlar haqqında əyani vəsaitlər (plakatlar, broşurlar) paylanaraq, yayımlanmışdır.

- Oktyabr, Noyabr aylarında Gəncə, Mingəçevir və Lənkəran RM-dən olan könüllülər toplam 80 nəfər dəyirmi masa ətrafında stiqma və diskriminasiya mövzusu haqqında müzakirələr aparılmışlar.

- Aprel ayında Lənkəran rayonunda 45 nəfər işçi və könüllü, həmçinin HIV/AIDS xəstəliyinə yoluxmuş 15 nəfərin iştirakı ilə “Diskriminasiyaya Yox Deyək” şüarı ilə iki günlük piknik təşkil olunmuşdur.

- Noyabr ayında Qızıl Aypara tərəfindən Mingəçevir, Sabirabad, Sumqayıt və Gəncə regionundakı 250 şagird arasında «Sizin üçün Qızıl Aypara Cəmiyyətinin könüllüsü olmaq nə deməkdir?” mövzusunda rəsm müsabiqəsi təşkil olunmuşdur.

- Fevral ayında Az.QAC-ın İnformasiya, Yayım və Beynəlxalq Əlaqələr şöbəsinin, BQXK-nin və Beynəlxalq Federasiyanın Bakıdakı Nümayəndəliyinin məsul işçiləri, Gürcustanın Tiflis şəhərində, Beynəlxalq Humanitar Hüquq, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının komponentləri və fundamental prinsipləri mövzularının necə, kimlər üçün və hansı formada yayımlanması və eyni zamanda Beynəlxalq əlaqələrin, komunikasiyanın inkşafı və təkmilləşməsi istiqamətində aparılan mövzuların

müzakirəsinə dair görüşdə və avqust ayında İtaliyanın Roma şəhərində narkotiklərdən istifadə edənlər arasında zərərin azadılması mövzusunda 9-cu treyninqdə iştirak etmişlər.

Müxtəlif çap materialları hazırlanmışdır:

| Çap materiallarının növü | Çap materiallarının sayı |
|---|---|
| İllik hesabat 2006 | 1,500 |
| Qələm | 1,900 |
| Yapışqan (böyük) | 100 |
| Broşur | 1,700 |

- 10 Mart Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranma günü münasibətilə Cəmiyyətin işçi və könüllü heyəti İctimai Televiziya tərəfindən yayımlanan «İşgüzar saat» verlişində iştirak etmişlər.

- Milli Cəmiyyətin fəaliyyətini əks etdirən toplam 220 məqalə yerli qəzetlərdə, informasiya agentliklərinin veb səhifələrində dərc olunmuşdur.

## BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATININ FUNDAMENTAL PRINSIPLƏRININ VƏ BEYNƏLAXALQ HUMANITAR HÜQUQ ƏSASLARININ YAYIMI

### PROQRAMIN MƏQSƏDİ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkib hissələri, yəni Beynəlxalq Qızıl Xaç Komitəsi, (BQXK) Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (BQX/QACF) və Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın fundamental prinsipləri, Qızıl Xaç və Qızıl Aypara emblemlərindən düzgün istifadə və Beynəlxalq Humanitar Hüququn əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaqdır. Proqram 1997-ci ildən BQXK-ın maliyyə dəstəyi ilə həyata keçirilir.

### FƏLİYYƏTLƏR

2007-ci il ərzində fəaliyyət planına uyğun olaraq aşağıda qeyd olunan fəaliyyətlər həyata keçirilmişdir:

AzQAC-ın Regionlarında fəaliyyət göstərən yayım könüllüləri üçün 2 treyninq keçirilmişdir. Treyninqin məqsədi yayım könüllülərinin BQX/QAH və BHH əsaları barəsində bilik səviyyələrini artırmaq, regionlarda yayım işlərinin gücləndirilməsindən ibarət olmuşdur. Yayım könüllülərinə BQX/QAH və BHH-ın əsasları haqqında məlumatları yayımlamaq hüququnu təsdiq edən sertifaklar verilmiş, həmçinin Aypara loqolu önlüklər və gödəkçələr təqdim edilmişdir.

Həm regionlarda fəaliyyət göstərən yayım könüllüləri, həmçinin yayım sektoru tərəfindən BQX/QAH onun tərkib hissələri və fundamental prinsipləri, BHH-ın əsasları haqqında məlumatlar hədəf qrupları arasında yayımlanmışdır. Sözü gedən məlumatla bağlı hər ayın sonunuda cəmiyyətin yeni könüllüləri üçün seminarlar təşkil edilmişdir.

Hədəf qrupları:

- Könüllülər (AzQAC)
- Üzvlər (AzQAC)
- Tələbələr
- Hərbi qüvvələr

- Tibb işçiləri
- İctimaiyyət

Kommunikasiya sahəsilə bağlı Tiflisdə görüş keçirilmişdir. Məqsəd bu sahəni daha da inkişaf etdirmək üçün fəaliyyətlərin necə və hansı şəkildə qurulmasından ibarət olmuşdur. Görüşdə Cənubi Qafqaz üzrə fəaliyyət göstərən Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin, BQX/QACF-ın, BQXK-nın nümayəndələri, o cümlədən AzQAC-ın yayım sektorunun rəhbəri də iştirak etmişdir.

2001-ci il Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununa, eyni zamanda Cenevrə Konvensiyasına uyğun olaraq Qızıl Xaç və Qızıl Aypara emblemindən sui-istifadə (qanunsuz) halları ilə fəaliyyətlər mütəmadi olaraq davam etdirilmişdir. Nəticədə Gəncə şəhərində bir sui-istifadə halının qarşısı alınmış, (tibb obyekti) obyektdə Qızıl Aypara və Qızıl Xaç emblemindən düzgün istifadə ilə bağlı lazımi söhbətlər aparılmışdır.

BQX/QAH, onun tərkib hissələri və fundamental prinsipləri, AzQAC-ın humanitar fəaliyyətlərini, BHH-ın əsaları haqqında məlumatları kütlə arasında, əsasən də regionlarda geniş yayımlamaq məqsədilə informasiya bülletenləri həmçinin digər yayım matertialları çap edilmiş, yayım tədbirləri zamanı paylanmışdır. Daxili və xarici yayimin gücləndirilməsi məqsədilə Hərəkat və AzQAC-ın fəaliyyətlərini eyni zamanda hüqüqi bazasını özündə əks etdirən lövhələr hazırlanmışdır.

Azərbaycanda müvəqqəti məskunlaşan Çeçen qaçqın uçaqlar üçün yay düşərgəsi təşkil edilmişdir. Məqsəd BQX/QAH, onun tərkib hissələri və fundamental prinsipləri, BHH-ın əsaları haqqında məlumatları uşaqlara çatdirmaq, bunula da onların asudə vaxtlarının səmərəli keçirməsinə nail olmaq olmuşdur. Həmçinin düşərgədə uşaqlara həkimə qədər ilk yardim göstərilməsi ilə bağlı seminar keçirilmiş bu sahədə müvafiq bilgilər verilmişdir.

NAİLİYYƏTLƏR

- 2007-ci il ərzində Regionlarda fəaliyyət göstərən 14 yayım könüllüsü AzQAC-ın humanitar fəaliyyətləri barəsində və BQX/QAH haqqında son məlumatlar əldə etmiş, nəticədə bu məlumatları hədəf qrupları arasında yayımlamışlar. 14 yayım könüllüsünə sertifikat verilmişdir.
- Ümumilikdə treyninqlər 2184 nəfəri əhatə etmişdir.
- Komunikasiya sahəsində müvafiq bilgilər əldə edilmişdir.
- Gəncə şəhərində emblemdən bir sui-istifadə halının qarşısı alınmışdır. Qızıl Aypara emblemindən kommersiya məqsədilə istifadə edən tibb obyektinin məsul şəxslərinə emblemdən düzgün istifadəyə dair məlumatlar verilmişdir.
- Azərbaycanda müvəqqəti məskunlaşmış 52 nəfər Çeçen uşaq BQX/QAH, onun tərkib hissələri və fundamental prinsipləri, BHH-ın əsaları haqqında müvafiq bilgilər əldə etmiş, həkimə qədər ilk yardım vərdişlərinə yiyələnmişlər.
- Çap edilmişdir
- Lövhə

| № | Material | Say |
|---|---|---|
| 1 | İnformasiya bülleteni | 6.000 əd |
| 2 | Aypara loqolu önlüklər | 91 əd |
| 3 | Aypara loqolu gödəkcələr | 32 əd |
| 4 | Sertifikatlar | 1.00 əd |

| № | Lövhənin adı |
|---|---|
| 1 | "Mərhəmət işığında" |
| 2 | AzQAC-a Dövlət qayğısı |
| 3 | BQX/QAH |

- Yayım edilmişdir

| № | Material | Say |
|---|---|---|
| 1 | İllik hesabat (2005) | 124 əd |

| | | |
|---|---|---|
| 2 | Aypara loqolu stiker | 155 əd |
| 3 | Strateji-plan (2005-2007) | 55 əd |
| 4 | Mərhəmət jurnalı | 82 əd |

# BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2007- ci ildə də beynəlxalq əlaqələri inkişaf etdirməklə bir çox nailiyyətlər əldə etmişdir. Məhz ötən il ərzində Cəmiyyətin əməkdaşları çoxsaylı beynəlxalq görüşlərdə, seminarlarda və konfranslarda iştirak edərək Cəmiyyəti və Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmişlər. Belə ki:

2007-ci il Noyabr ayının 19-dan 30-dək tarixində İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 16-cı Baş Assambleyası, Nümayəndələr Şurası və 30-cu Beynəlxalq Konfransında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov, Cəmiyyətin İcraçı Katibi Elxan Rəhimov və İcraçı Katibin müavini Bəylər Talıbov iştirak etmişlər.

2007-ci il may ayının 20-dən 24-dək tarixdə Türkiyənin İstanbul şəhərində 52 Milli Cəmiyyətin iştirakı ilə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 7-ci Avropa Konfransı həyata keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndə heyəti də həmin konfransa qatılmışdır. Nümayəndə heyətinə Azərbaycan QAC-in İcraçı Katibi Elxan Rəhimov, İcraçı Katibin müavini Bəylər Talıbov və Gənclər Komitəsinin sədri Şaban Şayev daxil idi.

2007-ci il Sentyabr ayının 21 dən 24 dək Estoniyanın paytaxtı Tallin şəhərində Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyasının QİÇS və Vərəmlə mübarizə Avropa Şəbəkəsinin (ERNA- European Network AIDS) 11-ci konfransı keçirilmişdir. AzQAC-nin Sağlamlıq və qayğı şöbəsinin müdiri M.Qaraxanova və İİV/QİÇS proqramının koordinatoru Ş. Şayev həmin konfransda iştirak etmişlər.

2007-ci il avqust ayının 27-dən 31-dək İtaliyanın Roma şəhərində Narkotiklərdən istifadə edənlər arasında zərərin azadılması mövzusunda 9-cu treyninq keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işçi heyətinə Cəmiyyətin Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova , İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov daxil olmuşlar.

26-30 dekabr 2007-ci il tarixində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin dəvətilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Vitse-Prezidenti Ramazan Sultanovun rəhbərliyi altında nümayəndə heyəti İranın Təbriz şəhərində 5 günlük rəsmi səfərdə olmuşlar. Nümayəndə heyətinin tərkibində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər Komitəsinin sədr-müavini Bayram Vəliyev və Gənclər Komitəsinin təlimatçısı Gülxanım Sultanova da iştirak etmişdir.

2007-ci il iyunun 22-də 15 Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin iştirakı ilə İtaliyanın Kastiqlion şəhərində Roma Konsensusu Rəhbərlər Qrupunun Birinci Görüşü keçirildi. Baş Katib Elxan Rəhimov və Baş Katibin müavini Bəylər Talıbov olmaqla Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nümayəndə Heyəti də həmin görüşdə iştirak etmişdir.

İsrailin Maqen David Adom Milli Cəmiyyətin dəvəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nümayəndə heyəti aprelin 17-dən 20-nə kimi İsrailə rəsmi səfər etdi. Nümayəndə heyətinə Azərbaycan AZQAC-in Prezidenti Novruz Aslanov, Gənclər Komitəsinin sədri Şaban Şayev və Rəyasət Heyətinin üzvü Nazim Məcidov daxil idi.

30 yanvar 2007-ci il tarixdən 03 fevral 2007-ci il tarixinə kimi Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə, Gürcüstan Respublikasının paytaxtı Tiflis şəhərində Cənubi Qafqazda fəaliyyət göstərən Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri bir araya gəldi. Azərbaycan Qızıl Aypara Cəmiyyətini, İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov, Yayım Sektorunun rəhbəri Ceyhun İsmayılov, Minalara Qarşı Mübarizə proqramının koordinatoru Bayram Vəliyev təmsil etmişlər.

2007-cı il aprel ayının 27-də «Türkiyə, Qafqaz və Orta Asiya Milli Cəmiyyətlərinin anlaşma memorandumunda» iştirak etmək üçün Cəmiyyətin Vitse-Prezidenti Qafar Əsgərzadə və İcmalar üzrə iş sektorunun rəhbəri Elnur Hacıbabayev Türkiyənin Antalya şəhərində səfərdə olmuşlar.

2007-ci il avqustun 27-də İsrail Magen David Adom Cəmiyyətinin nümayəndə heyəti Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişdir. Səfərin əsas məqsədi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işçi heyətinə və könüllülərinə həkimə qədər göstərilən ilk yardım təlimlərini keçməkdən ibarət olmuşdur. İsrail Magen David Adom Milli Cəmiyyətinin nümayəndə heyətinin tərkibinə Cəmiyyətin əməkdaşları Boris Kozokin və Namyot Amir daxil olmuşlar.

2007-cı il avqust ayının 6-dan 8-dək Türkiyə Qızıl Ay Cəmiyyəti prezidentinin Baş müşaviri Fəcri Alpaslan və Regional Əməkdaşlıq Proqramının rəhbəri İpək Kırca Azərbaycan Qızıl Aypara Cəmiyyətinin dəvəti ilə Azərbaycana rəsmi səfər etmişlər. Səfərin məqsədi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətilə tanış olmaq, gələcək əməkdaşlıq istiqamətlərinin müəyyən etmək barədə müzakirələr aparmaqdan ibarət olmuşdur.

2007-cı il dekabr ayının 24-dən 27-dək İsrail dövlətinin Milli Cəmiyyəti olan Magen David Milli Cəmiyyətinin Adom İcra Komitəsinin bir sıra məsul əməkdaşı, David Abadi, Eduard Zelvitski, İtzik Btoniya və Yusif İves Azərbaycan Qızıl Aypara Cəmiyyətinin dəvəti ilə Azərbaycana səfər etmişlər. Səfərin məqsədi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti ilə tanış olmaq və gələcək əməkdaşlıq haqqında müzakirələr aparmaq olmuşdur.

## TƏŞKİLATİ İNKİŞAF

Təşkilati inkişaf istiqamətində Cəmiyyətimiz tərəfindən zəruri layihələr həyata keçirilir. Cəmiyyətimiz son illər inkişaf mərhələlərini uğurla keçib və bütün bunları nəzərə alan Azərbaycan Qızıl Aypara Cəmiyyətinın fəxri üzvü, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının qanunvericilik təşəbbüsü ilə «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» Azərbaycan Respublikası Qanununun layihəsi 12 mart 2007-ci il tarixdə parlamentin müzakirəsinə təqdim olundu. Milli Məclisdə 3 oxunuşda təklif və rəylər nəzərə alınmaqla 8 may 2007-ci il tarixdə Parlament tərəfindən Qanun qəbul edildi  və dövlət başçısının 22 may 2007-ci il tarixli Fərmanı ilə qüvvəyə mindi.

Bu qanun Az.QAC-ın maddi-texniki bazasının gücləndirilməsində əhəmiyyətli rol oynayacaq. Cəmiyyətin humanitar fəaliyyəti bu qanunla tənzimlənəcək.

Bütün bunlar Dövlətin Qızıl Aypara Cəmiyyətinə göstərdiyi qayğının bariz nümunəsidir.

## YERLİ KOMİTƏLƏRİN İNKİŞAFI

**MƏQSƏD**: Proqramın məqsədi sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılmasına nail olmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ümumi strukturlarının və imkanlarının gücləndirilməsi.

**FƏALİYYƏTLƏR**

-2007 cı il ərzində yerli icra hakimiyyətləri, bələdiyyələr, beynəlxalq və yerli təşkilatlar ilə əməkdaşlıq davam etdirilir. Onlar AzQAC tərəfindən keçirilən treyninqlərdə mütəmadi olaraq iştirak ediblər.

-Gəncə, Qazax, Ağcabədi və Füzuli RK-də imkanların qiymətləndirilməsi aparılmış və onun nəticəsi olaraq “İcmalarda ehtiyacların qiymətləndirilməsi”, “layihələrin planlaşdırılması və idarə edilməsi”, “monitorinq və hesabat” və “Sosial qayğı” üzrə 20 nəfər işçi və könüllülər üçün 4 treyninq keçirilmişdir.

-Həmçinin 1 “fandreyzinq” və 1 “layihələrin planlaşdırılması və idarə edilməsi” üzrə həmin Rayon komitələri üçün treyninqlər keçirilmişdir.

- Gəncə, Qazax, Ağcabədi və Füzuli RK-ri tərəfindən icmalarda Ümumdünya Qızıl Xaç və Qızıl Aypara günü, Beynəlxalq Sağlamlıq günü, Siqaret və Tütün əleyhinə kampaniya və tədbirlər keçirilmişdir. Bütün bu tədbirlərdə ümumilikdə 750 nəfər icma üzvü iştirak etmişdir.

-Qızıl Aypara komitə könüllüləri ilk yardım üzrə 1,110 nəfərə təlim vermişlər. Daha 2,507 nəfər adamı isə profilaktik sağlamlıq üzrə məlumatlandırmışlar. Beynəlxalq İlk Yardım Günündə icmalarla 5 ilk yardım kompaniyası keçirilmiş və 5 səhiyyə maarifləndirmə kompaniyası təşkil edilmişdir.

-2007-cı il Oktyabr-Noyabr ayları ərzində həmin Yerli Komitə Sədrləri, Sədr müavinləri, mühasib, gənclər üzrə kordinatorları və könüllülərin iştirakı ilə ehtiyacların qiymətləndirilməsi və hesabat-monitorinq məsələləri üzrə treyninq məşğələləri keçirilmişdir. Ümumi 25 nəfər bu treyninqlərdə iştirak etmişdir.

-Həmçinin bu layihə daxilində bütün icmalarda 3 tədbir keçirilmiş və 780 icma üzvü aktiv surətdə iştirak etmişdir.

| Tədbirlərin adı | Cəlb olunanların sayı |
|---|---|
| Ailə planlaşdırılması, HİV/AİDS | 230 |
| Qidalanma Şəxsi gigiyena və sanitariya | 187 |
| İnfeksion xəstəliklər (malyariya, vərəm) | 300 |
| Ümumdünya Qızıl Xaç və Qızıl Aypara günü | 570 |
| Beynəlxalq Sağlamlıq günü | 120 |
| Siqaret və TB əleyhinə kampaniya | 114 |

| | |
|---|---|
| **Ümumi** | 1521 |

-Həmçinin layihə çərçivəsində sağlamlığa dair 6000 ədəd bukletlər çap edilib RK-nə paylanılmışdır.

**NAİLİYYƏTLƏR**

-Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Federasiyanın birgə keçirdiyi qiymətləndirmə Milli Cəmiyyətin komitə imkanları sahəsində geniş mənzərə açmağa imkan vermişdir. Komitələrin material və texniki imkanları da yaxşılaşdırılmışdır, bu da Qızıl Aypara işçilərinin və könüllülərinin özünə inamını, maraq və motivasiyasını artırmışdır. İnternetə qoşulmaq imkanı daha çox könüllüləri komitə fəaliyyətlərinə cəlb etmişdir. Maşınların olması komitələrə müntəzəm olaraq hədəfə götürülmüş kəndlərə səfər etməyə və icma işini axıra kimi başa çatdırmağa imkan vermişdir.

- Gəncə, Qazax, Ağcabədi və Füzuli komitələri könüllülərin idarəedilməsini gücləndirmişlər. Onlar komitə inkişafı işində hər bir könüllünün rolunu təyin etmişlər. Bütün könüllülər məlumat bazasında qeydiyyata alınmışlar.

-Yerli icra hakimiyyətləri ilə əməkdaşlıq yaxşılaşmışdır. Layihədən qabaq komitələr yalnız ərzaq və dərman preparatlarının bölüşdürülməsi işinə cəlb olunmuşlar. Hazırda onların işi ilk yardım, səhiyyə maarifi və humanitar dəyərlərin yayılması kimi sahələri əhatə edir. Komitələr həmçinin müxtəlif sosial fəaliyyətlərə də başlamışlar. Komitələrdən alınan maliyyə və nəqli hesabatlar da yaxşılaşmışdır. Qızıl Aypara komitələri öz fəaliyyətlərində iştirak edən gənc qız və oğlanların sayını artıra bilmişlər. Layihənin ilkin mərhələsində təkcə 128 qız və 23 oğlan iştirak edirdi. Layihənin sonunda isə bu rəqəm artmışdır. Belə ki, 700-dən artıq qız və 450 oğlan profilaktik sağlamlıq, ilk yardım və bacarıqların təlimi sahəsində Qızıl Aypara ilə birgə çalışmışdır.

-10 nəfər könüllü "İcmalarda ehtiyacların qiymətləndirilməsi", 15 nəfər icma könüllüləri "Sağlamlıq üzrə" 15 nəfər RK işçiləri "layihələrin planlaşdırılması və idarə edilməsi" və 15 nəfər RK könüllüsü "Sosial qayğı" üzrə 4 təlim keçərək bilik və bacarıqlarını artırmışlar.

-İcmalar ilə keçirilən tədbirlərdə ümumilikdə 1.500 icma üzvü aktiv iştirak etmişdir ki bu da icmaların AzQAC-a olan maraqlarının artırılmasıdır.

-Adları çəkilən Rayon Komitələrinə 4 ədəd komputer dəsti verilmişdir ki, bu da onların iş şəraitlərəinin yaxşılaşdırılması üçün mühüm bir vasitə olacaqdır.

**PROBLEMLƏR**

- Hazırki layihə daxilində aparılan icma iştiraklı inkişaf üsulu Qızıl Ayparanın yerli komitələri üçün yeni bir üsul idi. Bəzi komitələrin işçi heyəti üçün bunu qəbul etmək və başa düşmək bir qədər mürəkkəb olmuşdur.
- RK-nin ucqar kəndlərdə yerləşən icmalara səfərlərin sayı bir qədər azalmış və orada monitorinqi vaxtında keçirtmək mümkün olmamışdır. Bunun əsas səbəbi Proqram daxilindən Federasiya tərəfindən yanacaq xərclərinin dayandırılması olmuşdur.

## GƏNCLƏR KOMITƏSİ

2007-ci il fevralın 7-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) işçiləri və könüllüləri Mərdəkan qəsəbəsində yerləşən qocalar evinə baş çəkmişdir. Qocalar evinin sakinləri qayğıya ehtiyacı olan, tərk edilmiş yalqız insanlardır. Səfərin məqsədi bu insanlara mənəvi dəstək vermək və onlara müxtəlif ölçülü yeni və geyilmiş paltarlar təqdim etmək idi. Bu aksiyada AzQAC-ın İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin, Gənclər Komitəsinin işçiləri və könüllüləri fəal iştirak etmişdir. Bu tədbir Gənclər Komitəsinin işçilərinin təşəbbüsü və şəxsi vəsaitləri hesabına həyata keçirildi. Müxtəlif fəsillərə uyğun 100

bağlama paltar AzQAC-ın işçiləri tərəfindən paylandı. Məlumat üçün onu da qeyd edək ki, AzQAC Gənclər Komitəsi öz könüllüləri ilə birgə tez-tez belə humanitar kompaniyalar keçirir.

AzQAC-ın Gənclər Komitəsi AzQAC-ın 87 illiyinə həsr edilmiş bir sıra tədbirlər həyata keçirdi. Bunlardan biri də 2007-ci il martın 12-də Bakı şəhər 4 saylı qadın cəzaçəkmə müəssisəsində qadın məhbuslar üçün tədbir keçirilmişdir. Bu tədbirdə məhşur müğənni Sevda Ələkbərzadənin konserti təşkil olunmuşdur. Qadınların hər birinə gigiyenik dəst paylanmışdır.

2007-ci il martın 19-da AzQAC-ın Gənclər Komitəsi Xətai rayonunda yerləşən azyaşlıların tərbiyə müəsisəsində Novruz xeyriyyə tədbiri keçirmişdir. Tədbir iştirakçılarına nahar və şirniyyat süfrəsi, müxtəlif hədiyyələr və onlara aksiyalar nəticəsində əldə edilmiş müxtəlif ölçülü geyimlər verilmişdir. Tədbiri Azərbaycan estradasının gənc ulduzlarından biri olan Fuad Mirzəyev öz musiqili proqramı ilə bəzəmişdir. Tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının və Beynəlxalq Qizil Xaç Komitəsinin Bakı nümayəndəliklərinin rəhbər işçiləri də iştirak etmişdir.

2007-ci il 29 iyun tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər Komitəsi 2007-ci il üçün nəzərdə tutulmuş «Yay düşərgəsi»ni rəsmi açıq elan etdi. Gənclər Komitəsinin 1 həftəlik keçirdiyi "Yay düşərgəsi" Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərakatlnın (BQX/QA) -Qərəzsizlik- fundamental prinsipinə uyğun olaraq Azərbaycanda müvəqqəti məskunlaşan Çeçen qaçqın icmasının uşaqları üçün reallaşdırılmışdır. Artıq 2-ci ildir ki, Qızıl Ayparanın Gənclər Komitəsi Çeçen qaçqın uşaqlar üçün yay mövsümündə "Yay düşərgəsi" təşkil edir. Bu il "Yay düşərgəsi" Abşeron rayonunun Novxanı kəndində çimərlik yaxınlğındakı istirahət mərkəzlərinin birində təşkil olunmuşdur. Bu ilki "Yay düşərgəsi"nin proqramı əsasən uşaqların birgə nizam-intizam qaydalarına riayət etməsi, sağlamlıq və gigiyena üzrə maariflənmə, BQX/QA Hərakatının fundamental prinsiplərinin təhlili üzrə treyninqlər, müzakirələr aparılması və ilk yardım vərdişlərinin aşılanması üzərində qurulmuşdur. Bundan əlavə proqramda gündəlik çimərlikdə əylənmə, idman yarışları, intellektual oyunlar, diskoteka saatları və s. istirahət dəqiqələrinə də vaxt ayrılmışdır. "Yay düşərgəsi"ndə 52 nəfər Çeçen uşağı, 2 nəfər Çeçen icmasının nümayəndəsi istirahət etmişlər.

2007-ci ildə Qızıl Ayparanın Gənclər Komitəsinin nəzdində cəmiyyətin Sağlamlıq və Qayğı şöbəsi ilə sıx əməkdaşlıq çərçivəsində könüllü gənc qan donorlarının inkişafı üzrə fəaliyyət göstərəcək "Club-25" təsis edilmişdir. 2007-ci il avqustun 10-da Qızıl Ayparanın baş qərargahının konfrans zalında respublikada gənclərlə fəaliyyət göstərən dövlət və qeyri-dövlət nümayəndələrinə "Club-25" layihəsi haqda ayrıca təqdimat keçirilmişdir. Təqdimatın əsas məqsədi Respublikada gənclərlə fəaliyyət aparan təşkilatları yeni yaranmış "Club-25"lə və onun fəaliyyəti ilə yaxından tanış etmək və gələcəkdə də birgə əməkdaşlıq əlaqələrinin yaradılmasını təmin etmək olmuşdur. Təqdimatda Qızıl Ayparanın Gənclər Komitəsinin sədr müavini Bayram Vəliyev, Cəmiyyətin Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova, "Club-25"in sədri Fuad Əsgərov, Beynəlxalq Qızıl Xaç \ Qızıl Aypara Cəmiyyətləri Federasiyasının məsul əməkdaşı Səbinənur Məhbubi-İran, Respublika Gənclər və İdman Nazirliyindən məsul nümayəndələr digər aidiyyatı olan qurumlardan məsul nümayəndələr iştirak edirdilər.

27 dekabr 2007-cı il tarixində Dünya azərbaycanlıların Həmrəylik günü və yeni il bayramları münasibətilə Gənclər Komitəsi Bakı şəhəri Yasamal rayonunda yerləşən «Ümid yeri» uşaq sığınacağında məskunlaşmış uşaqlar üçün bayram şənliyi təşkil keçirmişdir.

## GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

***Ümumi məqsəd:QAC-də Gənclər və könüllülərin idarəetmə, cəlbolunma və qeydiyyatının yaxşılaşdırılması məqsədilə effektiv gənclər və könüllülər idarəetmə sisteminin inkişaf etdirilməsi.***

Treyninq Modul kursları

*Məqsəd*
Treyninq modulunun hazırlanmasında məqsəd:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsiplər;
- Fəaliyyətlər haqqında;
- Yeni gələn könüllüləri AzQAC-ın rayon komitəsinin fəaliyyətində iştirak etməyə və bacarıqlarını nümayiş etdirməyə həvəsləndirməkdir.

İl ərzində 976 nəfər modul treniniq kursunu dinləmiş 42 nəfər Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad Gəncə RM-nin könüllülərini isə modul treyninqlə əlaqədar trenir kimi hazırlanmışdır. Həmin trenerlər rayonlarda əhali üçün treyninqlər həyata keçirmişlər.

*Lider treyninq kursları*

7 regional mərkəzlərin gənclər koordinatorları , icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümümilikdə 197 nəfərə lider treyninq kursları keçirilmişdir.

- Lider kimdir?
- Kurs zamanı müxtəlif oyunlar;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Layihə nə deməkdir?
- Layihələrin yazılması
- Partnyorların və donorların axtarışı
- Donorlarla proktiki iş.
- Gəzintilər və s.

**Nailliyət**

Artıq lider treyninq keçmiş təlimçilər öz regionlarında təlimə başlayıblar. Təlim çox uğurlu nəticələr verir.

Uşaq evlərində fəaliyyət göstərən könüllülər üçün sosial təlimlər.

Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir rayonlarının uşaq evlərində fəaliyyət göstərən 60 nəfər könüllü üçün sosial treyninq keçirilmişdir.

Proqrama əsasən 7 RM-in və hər bir mərkəzin 3 məktəbində hər məktəbdə 25 şagird olmaqla 525 nəfər məktəbli üçün « İlk yardım» və hərakatın yayımı haqqında 3 ay ərzində təlimlər aparılmışdır. Təlimin nəticəsi olaraq 3 etapdan ibarət olaraq yarış keçirilmiş, bu yarışlar 1-ci mərhələdə rayonda məktəblər arası 2-ci mərhələ RM-i arasında 3-cü mərhələdə Bakıda yekun yarışlar keçirilmiş, yarışda qalib gələn şagirdlər mükafatlandırılmışdır.

Gəncə RM-də məktəblilər və tələbələr üçün HİV/AİDS, sağlamlıq, humanitar dəyərlər, ilk yardım, liderlik, fövqəladə hallara hazırlıq, sosial iş kimi məşğələlər keçirilərək prezentasiyalar aparılmışdır. Ümumilikdə 679 nəfər iştirak etmişdir. Bu səpkidə tədbirlərin keçirilməsi gələcəkdə AzQAC-a daha çox könüllülərin cəlb olunmasına səbəb olacaq.

***Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri***

İl ərzində 2 mərkəzi gənc könüllülər şurasının görüşü keçirilmişdir.

Regional görüşlər isə

- Sumqayıt RM-də 1 dəfə
- Mingəçevir RM-də 1 dəfə
- Gəncə RM-də 1 dəfə

- Lənkəran RM-də 1 dəfə
- Bakı RM-də 1 dəfə
- Sabirabad RM-də 1 dəfə

**Məqsəd**

Mərkəzi və regional səviyyədə işçilər və könüllülər arasında əlaqələri yaxşılaşdırmaq, daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini yaratmaq.

**Nailiyyət**

Mərkəzi və Regional Gənc Könüllülər Şurasının rayonlarda keçirilən görüşləri artıq könüllülər tərəfindən sərbəst formada koordinasiya olunur.

- Planlaşdırılmış RK –də Gənclər klubunun yaradılması;
- Gələcək planların müzakirəsi;
- Gənclər təşkilatının inkişafı;
- Rayonlarda kiçik sosial layihələrin həyata keçirilməsi.
- Planlaşdırılma;
- LiderTreyninq Modulunun yeniləşdirilməsi və treyninq sistemlərin yaradılması;
- İcmalarla iş;
- Könüllülərin elektron qeydiyyatı, RK- geniş inkişafı
- Lənkəran və Gəncə RM-də « Məktəbə qaydış proqramının» həyata keçirilməsi
- Məktəblərdə « İlk yardım» və Qızıl Xaç və Qızıl Aypara Hərakatının tarixi və fəaliyyəti haqqında məlumatların yayımı.
- 11 sentyabr İlk yardım, 1dekabr HİV/AİDS günü, 5 dekabr könüllülər günü ilə əlaqədar RK-də keçirilən tədbirlərə hazırlıq və həyata keçirilməsi və.s

***Könüllülərin elektron qeydiyyatının inkişaf etdirilməsi.***

**Məqsəd**

Ölkə üzrə könüllüləri effektiv şəkildə toplayıb inkişaf etdirmək.

**Nailiyyət**

Hal-hazırda elektron qeydiyyatı Baş Qərargahın Gənclər şöbəsində, Sumqayıt, Zaqatala, Minqəçevir,İsmayıllı, Şamaxı, Gəncə RM-də yaradılıb.Qalan rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyat blanklarından istifadə olunur. Ancaq gələcəkdə nəzərdə tutulub ki, regionlarda da elektron qeydiyyatlarından istifadə olunsun. Hər ay rayon komitələrindən könüllülərin qeydiyyat məlumatı şöbəyə çatdırılaraq elektron qeydiyyatında qeyd olunur. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərilməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir. İl ərzində 1479 nəfər könüllü üzv qəbul olunmuşdur

***Çap materiallarının nəşri***

Məqsəd

Maarifləndirmə, yayım materiallarının yeni növünü nəşr etmək və AzQAC-ın, xüsusi ilə gənc könüllülərin daha yaxşı fəaliyyət göstərilməsinə yardım etmək.

Könüllülərlə işləyərkən onların bacarıq və qabiliyyətlərini dəstəkləmək.

**Nailiyyət**

Rayon komitələrinin gəncləri, könüllüləri və şöbə tərəfindən 300 ədəd sersifikat, tərifnamə, 500 ədəd plakat, 1000 əd broşur, 500 əd. könüllülər üçün təlim kitabı, 500 əd QAC - loqası, 150 əd mayka, 4000

könüllülər üçün reqistrasiya blankı, 230 əd modul treyninq papkaları hazırlanıb, nəşriyyatda çap olunub və könüllülərə yayılıb. Bu da gənclərin və könüllülərin diqqətini cəlb edərək onları həvəsləndirir.

*Əlil uşaq evlərində sosial fəaliyyət*

Şağan, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayonlarında yerləşən kimsəsiz uşaq evlərində və Sumqayıtda yaşayan əlil uşaqlarla sosial işlər aparılır. Həmin sosial işlər aşağıdakılardır: uşaqların gəzintisi, rəsm, toxumaq, idman, musiqi, dərslərinə kömək, təsviri incəsənət və s.

Lənkəran uşaq evində 75 nəfər kimsəsiz uşaqlar üçün 7 günlük «Qızıl Payız» istirahət düşərgəsi keçirilmişdir. Həmin düşərgənin keçirilməsində maliyyə dəstəyinə köməklik edən BQX / QAC Federasiyası idi. Düşərgənin keçirilməsində Az. QAC-ın Lənkəran RK-nin 15 nəfər könüllüləri və əməkdaşları fəaliyyət göstərmişdir. Düşərgədə 75 nəfər kimsəsiz uşaqlar iştirak edirdi.Burada uşaqlar üçün gəzintilər, kukla teatırı, kinoteatr, Lənkəran rayonuna yaxın olan tarixi muzeylərə baxış, Park, kafelər, müəyyən əyləncəli atraksionlara ekskursiya edilmişdir..

1 İyun Beynəlxalq Uşaqların Müdafiəsi günü ilə əlaqədar Lənkəran, Şağan, Sumqayıt uşaq evlərində və çətin tərbiyyə olunan uşaq koloniyasında tədbir keçirilmişdir.

Proqram çərçivəsində Sumqayıtda 30 nəfər əlil uşaqlar üçün avqust ayında dəniz kənarında 1 günlük istirahət təşkil edilmişdir.

15 Sentyabr «Bilik günü» ilə əlaqədar Lənkəran rayon uşaq evində yaşayan 75 nəfər uşaq üçün tədbir keçirilmişdir.Tədbir kompaniya xarakteri daşıyırdı.Tədbir Sosial iş, İlk yardım, HİV/AİDS proqramlarını əhatə edirdi.

Tədbirdə əl işlərindən ibarət sərgi, uşaqlar arasında intellektual yarışlar, viktorina keçirilmiş və konsert verilmişdir. Sonda 75 nəfərə yemək süfrəsi açılmış 40 məktəbliyə hədiyyələr bağışlanmışdır.
Proqram çərçivəsində Sumqayıtda 30 nəfər əlil uşaqlar üçün Şağan qəsəbəsində isə yerləşən 3 №li əlil uşaq evində 90 nəfər üçün 3 Dekabr Əlillər günü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə konsert proqramı, sərgi, sonda isə uşaqlara süfrə açılıb hədiyyələr təqdim edilmişdir.

«Yeni il» Bayramı münasibəti ilə Binəqədi rayonunda yaşayan əlil uşaqlar üçün Çənlibel restoranında tədbir keçirilmişdir. Tədbirdə 60 nəfər əlil uşaq iştirak etmişdir. Uşaqlar üçün yemək süfrəsi, hədiyyələr, sonda şəhərdə keçirilən yolka şənliklərinə biletlər verilmişdir.

***Məqsəd***
1Əlil uşaqlara maddi və mənəvi yardım göstərmək.

2.Onları təhsilləndirmək və dərslərinə köməklik göstərmək.

3.Qismən də olsa onların müəyyən qayğılarını unutdurmaq.

**Gənclər klubunun yaradılması**

Zaqatala rayon komitəsində gənclər klubu yaradılmışdır.

**Məqsəd**

- Könüllülərin göstərdiyi fəaliyyətlərin yaxşı koordinasiya olunması,
- Gəncləri əsasən bir yerə yığmaq, pis vərdişlərdən yayındırmaqla onların fikirlərinin bölüşməsi üçün şərait yaratmaq,
- Onların informasiya qıtlığını qismən də olsa aradan qaldırmaq,
- Vaxtlarını Qızıl Aypara Cəmiyyətinin fəaliyyətlərinə kömək edərək səmərəli keçirtmək,
- Gənclər arasında müxtəlif mədəni, kütləvi tədbirləri keçirmək,
- AzQAC-nin gənclər və könüllülər ordusunun sayını çoxaltmaq və s.

**Nəticə**

Gənclər klubunun açılması gənclərin və könüllülərin sevincinə səbəb olub. Artıq gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün şərait yaradılmışdır.

5 Dekabr Beynəlxalq Könüllülər günü ilə əlaqədar bütün regionlarda tədbirlər keçirilmişdir. Tədbirlərdə regional mərkəzlərin və rayon komitələrinin könüllüləri, Mərkəzi Gənc Könüllülər Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclər koordinatorları, könüllülər və s. ümumilikdə 1400 nəfər iştirak etmişdir. Proqram aşağıdakı şöbələrin təqdimatlarından ibarət idi:

- Gənclər və könüllülər şöbəsinin təqdimatı
- HİV/AİDS proqramının təqdimatı
- Sosial iş
- Sağlamlıq və qayğı
- İlk yardım
- Beynəlxalq əlaqələr

2-ci hissə

- Qruplarda iş
- Qrupların təqdimatı
- Furşet və diskoteka

## MİNALARA QARŞI MÜBARİZƏ

### Həyata keçirilmiş fəaliyyətlər.

Ümumi məqsəd: Azərbaycan Qızıl Aypara Cəmiyyətini Respublikada mina və Partlamamış Hərbi Sürsatlardan (PHS) zərər çəkmiş icmalarda "Mina Risklərinin Azaldılması", "Mina Üzrə Maarifləndirmə" (daha 10 cəbhəyanı kənddə "Təhlükəsiz Oyun Meydançaları"nı (TOM) quraşdırmaq) üzrə fəaliyyət göstərən ən qabaqcıl təşkilatlardan birinə çevirmək, icmalar və Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) arasında vasitəçi bir rol oynamaq, Qızıl Aypara və ANAMA arasında "Mina\Müharibənin Partlayıcı Qalıqları (MPQ) hadisələri və qurbanları, eləcə də minadan zərərçəkmiş şəxslərin ehtiyacları haqqında məlumatların toplanması üzrə" Razılaşma Memorandumunun imzalanmasını təşkil etmək, minalar və onların törətdikləri fəsadların cəbhəyanı rayonlarda fəaliyyət göstərən KİV-də daha geniş işıqlandırılması istiqamətində səy göstərmək və mina\PHS-lərə qarşı fəaliyyət göstərən digər yerli və beynəlxalq Hökumət və Qeyri Hökumət Təşkilatları ilə sıx əməkdaşlıq etmək.

Mina Risklərinin Azaldılması:

2007-ci ildə də Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) maliyyə və texniki dəstəyi ilə cəbhə yaxınlığında yerləşən, mina problemləri ilə üzləşən daha 10 kənddə uşaqları mina və PHS-lə qarşılaşma risklərindən qorumaq məqsədilə "TOM"lar quraşdıraraq icmanın istifadəsinə vermişdir. Layihənin əsas məqsədi uşaqları oynamaq üçü təhlükəsiz sayılan oyun meydançası ilə təmin edərək onların mina\PHS-lə qarşılaşma risklərini sıfıra endirməkdir. 2007-ci ildə "TOM" layihəsi aşağıdakı cəbhəyanı rayonlarda həyata keçirilmişdir:

Qazax rayonu – Məzəm, Quşçu Ayrım kəndləri;

Tovuz rayonu – Əsrik Cırdaxan kəndi;

Gədəbəy rayonu – İsalı, Mor-Mor kəndləri;

Ağdam rayonu – Əhmədağalı, Orta Qərvənd kəndləri;

Ağcabədi rayonu – Minəxorlu kəndi;

Tər-Tər rayonu – Qapanlı, Hüsənli kəndləri.

Mina üzrə Maarifləndirmə:

2007-ci ildə Qızıl Aypara tərəfindən həyata keçirilmiş "TOM" layihəsində (6 rayondan 10 kənddə) hər bir oyun meydançasına minalar və PHS-lər əleyhinə üzərində şüarlar yazılmış və rəsmlər çəkilmiş müxtəlif maarifləndirici lövhələr quraşdırılmışdır. Bu lövhələr də öz növbəsində uşaqların mina təhlükəsi barədə bilavasitə xəbərdar olmalarında özünəməxsus rol oynayır.

Qızıl Aypara və ANAMA arasında əməkdaşlıq.

2007-ci il 18 dekabr tarixində BQXK-nin təşkilati dəstəyi ilə Bakı şəhərində "Beynəlxalq Mətbuat Mərkəzində" Qızıl Aypara və ANAMA arasında "Mina\Müharibənin Partlayıcı Qalıqları (MPQ) hadisələri və qurbanları, eləcə də minadan zərərçəkmiş şəxslərin ehtiyacları haqqında məlumatların toplanması üzrə" Razılaşma Memorandumu imzalanmışdır. Razılaşma Memorandumuna əsasən Qızıl Aypara 2008-ci ildə baş verə biləcək hər hansı bir mina və ya PHS hadisəsi zamanı mina qurbanına çevrilmiş şəxlər haqda tam məlumatı özündə əks etdirən xüsusi beynəlxalq standartlara uyğun, hadisənin baş verməsini qiymətləndirən "İMSMA" məlumat blanklarını dolduracaq, bundan əlavə minadan zərərçəkənlərin ehtiyaclarının öyrənilməsini də həyata keçirəcəkdir. ANAMA isə öz növbəsində Qızıl Ayparanı baş vermiş hadisə barədə məlumatlandıracaq, Cəmiyyətin əməkdaşlarını bu fəaliyyət növünün həyata keçirilməsi üçün təlimlərlə təmin edəcək, mina qurbanları haqda Cəmiyyətin təqdim etdiyi məlumatları yoxlayaraq "İMSMA" məlumat bazasına daxil edəcəkdir.

KİV-lə iş:

Qızıl Ayparanın Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Tər-Tər, Goranboy, Ağdam, Ağcabədi, Füzuli rayon bölmələri mütəmadi olaraq öz rayonlarında fəaliyyət göstərən aparıcı KİV-lə müntəzəm olaraq əlaqə saxlayır, Cəmiyyətin həyata keçirdiyi layihələr və s. haqda müxtəlif məqalələrin qəzetlərdə və s.-də işıqlandırılmasında yaxından iştirak etmişlər.

Digər əməkdaşlıq:

09 iyul 2007-ci il tarixində Qızıl Ayparanın Baş Qərargahında "İsveçrə Mina Qurbanlarına Yardım Fondu"nun İdarəetmə Şurasının nümayəndələri cənab Jan Dominik Demotaz, cənab Vilyem Strekeyzen, həmçinin Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin (AzCBL) sədri cənab Hafiz Səfixanovla ikitərəfli görüş keçirilmişdir. Görüşdə Qızıl Ayparanın Vitse-Prezidenti Qafar Əsgərzadə və Cəmiyyətin Minalara Qarşı Mübarizə Proqramının koordinatoru Bayram Vəliyev iştirak etmişlər. Görüşdə təşkilatlar həyata keçirdikləri fəaliyyətlər barədə müzakirə apardılar.

23 avqust 2007-ci il tarixində Qızıl Ayparanın Minalara Qarşı Mübarizə proqramının rəhbəri Bayram Vəliyev AzCBL-in "Kassetli Silahlara Dair" Bakı şəhərində "Diplomat-Hotel"də təşkil etdiyi 2 günlük regional görüşdə iştirak etmişdir.

## HUMANİTAR YARDIM

### Məqsəd:

Azərbaycan QAC Nizamnaməsinə əsaslanıb Cəmiyyətin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha, xəstə, qaçqın və köçkünlərə, aztəminatlı və təbii fəlakətlərdən zərər çəkmiş zavalı insanlara müxtəlif formada köməklik göstərmək;

**Fəaliyyət**:

AzQAC Katibliyinə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif müraciətlər daxil olmuşdur. Milli Cəmiyyət tərəfindən həmişə olduğu kimi, 2007-ci ildə də müraciətlərə fərdi qaydada baxılmış, hər bir müraciət barədə müvafiq qərar qəbul edilmişdir.

AzQAC prezidenti cənab Novruz Aslanovun təsdiq etdiyi qrafikə uyğun olaraq har çərşənbə günü saat 15.00-dən 18.00 kimi Cəmiyyətinin rəhbərliyinin və humanitar yardım şöbəsini əməkdaşının iştiraki ilə yardıma ehtiyacı olan az təminatlı insanların qəbulu təşkil etmişdir. Zavallı insanlara Cəmiyyətinin ianə qutularından toplanan vəsait və eyni zamanda Azərbaycan Qızıl Aypara Cəmiyyətin Prezidenti cənab N. Aslanovun şəxsi vəsaiti hesabına yardım olunmuşdur.

Cəmiyyətinin missiyasına aidiyyatı olan zavallı insanların rayonlar üzrə sayının müəyynləşdirilməsi və siyahıların tərtibi işi davam etdirilmişdir. **Naliyyətlər**: **(Azərbaycan QAC üzrə göstərilmiş Humanitar Yardım)**

| **Humanitar Yardımın mənbəyi** | **Humanitar yardımın növü** | **Əhalinin kateqoriyaları** | **Yardım göst. İnsanların sayı** | **Məbləğ (man.)** |
|---|---|---|---|---|
| ianə qutuları | ərzaq, paltar, dərman və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr | 921 | 4437 |
| BQX və QA Cəmiyyətləri Fedirasiyası və digər gəlirlər hesabına | Məişət avadanlıqları, gigeyenik dəstlər, ləvazimatlar və s. | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar | 295 | 18194 |
| QAC Rayon Komitələrinin üzvülük haqqı və müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına | Ərzaq, dərman, , məişət avadanlıqları, yataq dəstləri və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər | 25915 | 163 174 |
| **Cəmi**: | | | 27131 | 185 805 |

Görüdüyü kimi 2007-ci ildə QAC Rayon Komitələri tərəfindən üzvülük haqqı hesabına göstərdikləri Humanitar Yardım 2006 –cı ilə nisbətən yardım olunanların sayına görə 1,2 dəfə, yardımın məbləğinə görə 1,8 dəfə artmışdır.

Respublikada fəaliyyət göstərən müxtəlif Beynəlxalq humanitar təşkillatlarla da səmərəli əməkdaşlıq işləri aparılmışdır.

Carı ildə «UMCOR» Beynəlxalq Humanitar Təşkillatı ilə əməkdaşlıq daha səmərəli olmuşdur.

Belə ki, «UMCOR» Beynəlxalq Humanitar Təşkillatı tərəfindən hesabat ilində 2600 nəfər aztəminatlı insanlara paylanmaq üçün 30.700 $ məbləğində müxtəlif gigiyenik dəstlər və məktəbli ləvazimatları ayrılmışdır.

«COUNTERPART» İntenasional Beynəlxalq Humanitar Təşkilatı ilə də əməkdaşlıq qənaətbəxş olmuşdur.

Humanitar Yardım şöbəsi Katibliyin müvafiq şöbələri ilə müxtəlif humanitar tədbirlərdə iştirak etmiş, şöbələrarası əməkdaşlıq lazımi səviyyədə qurulmuşdur.

**Problemlər**:

1. Humantiar yardım məqsədi ilə lazım olan maliyyə vəsaitinin kifayət qədər olmaması.
2. Daxil olan ərizə, şikayət və digər müraciətlərin yerlərdə yoxlanmasını təmin etmək məqsədi ilə nəqliyyat xərclərinin nəzərdə tutulmaması.
3. Bəzi yerli komitə rəhbərlərinin və regional mərkəz koordinatorlarının icra məsuliyyətinin aşağı olması.

**Regional Mərkəzlərin fəaliyyətinə dair əlavə məlumat**.

| № | Regional mərkəz | Yardım olunanların sayı (nəfər) | | | | Məbləğ (man.) |
|---|---|---|---|---|---|---|
| | | Qaçqınlar | Məcburi köç-çkünlər | Yerli aztəm minatlı | Cəmi | |
| 1 | Bakı | 619 | 1814 | 11019 | 13452 | 72729 |
| 2 | Gəncə | 480 | 210 | 2390 | 3080 | 16016 |
| 3 | Sumqayıt | 76 | 230 | 3063 | 3369 | 26773 |
| 4 | Lənkəran | - | 196 | 1607 | 1803 | 9376 |
| 5 | Sabirabad | 66 | 108 | 1838 | 2012 | 10868 |
| 6 | Mingəçevir | 50 | 207 | 1000 | 1257 | 22612 |
| 7 | Qarabağ | 32 | 910 | - | 942 | 4800 |
| | **Cəmi:** | 1323 | 3675 | 20917 | 25915 | 163 174 |

## AXTARIŞ XİDMƏTİ

**Əsas məqsədlər**:

İnsanların iztirablarını azaltmaq və ailə əlaqələrinin bərpası, o cümlədən fövqəladə hallar və ya fəlakətlər zamanı zərərçəkmiş insanlara axtarış istiqamətində yardımlar etmək.

**Tarix**

Axtarış Xidməti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının başlıca fəaliyyət istiqamətlərindən biri olaraq öz ilkin əsasını 1863-cü ildən götürür. Solferino döyüşü zamanı yaralı əsgərlərin doğmalarına yazdıqları məktubları Anri Dyunanın köməkliyi sayəsində evlərinə çatdırırdılar. Bu da axtarış xidmətinin əsasını qoydu.

Respublika müstəqillik əldə etdikdən sonra AzQAC-da müstəqil fəaliyyət göstərməyə başladı və bunun nəticəsində AzQAC-da Axtarış Xidmətinin yaradılması zərurəti yarandı və Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə 1995-ci ilin may ayından AzQAC Axtarış Xidməti yaradıldı.

AzQAC-ın Axtarış Xidməti Beynəlxlq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olaraq ümumdünya axtarış şəbəkəsi çərçivəsində fəaliyyət göstərir. Cenevrə Konvensiyaları və əlavə protokolar əsasında Axtarış Xidməti aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir.

1. İtkin düşənlərin axtarışı,
2. Ailə əlaqələri haqqında məlumatların ötürülməsi,
3. Ailə əlaqələrinin bərpası,
4. Şəxsiyyəti müəyyənləşdirmək məqsədilə qeydə alma, məlumatların yayılması və yığımı.

**Az.QAC-ın Axtarış Xidmətinin əsas fəaliyyətləri** :

1. 2-ci Dünya Müharibəsi zamanı itkin düşənlərin axtarışı.
2. Evakuasiya faktlarının dəstəklənməsi.
3. 2-ci Dünya Müharibəsi zamanı Almaniya və Avropanın digər dövlətlərində əsirlik və məcburi əmək fəaliyyəti faktlarının təsdiqlənməsi, sonradan kompensasiya ödənişi məsələlərinə baxılması üçün yardım göstərilməsi.
4. Miqrasiya və milli münaqişələr zamanı ailə üzvlərinin axtarışı.
5. Ailə əlaqələrinin bərpası.
6. Hərbi və mülki məzarların tapılması və onların mövcudluğu haqqında arayışların verilməsi.
7. Sosial hüquqların bərpası məqsədilə hökumət strukturlarına edilmiş rəsmi müraciətlərin tapılaraq sonrakı problemlərin həllində yardımçı olmaq.
8. Qızıl Xaç və Qızıl Aypara göndərişi.

AzQAC-da Axtarış Xidməti fəaliyyət göstərəndən bəri insanların axtarışı ilə bağlı 2077 ərizə qəbul olunub. Son iki ildə onlardan 568 nəfəri bizə müraciət edib. Onlardan 268 nəfəri axtarış, 63 nəfər isə sənədlərinin axtarışı üçün müraciət ediblər.

2005-2006- cı illərdə Az.QAC axtarış xidməti itkin düşmüş insanların tapılması və onların ailə əlaqələrinin bərpasında 92 nəfərə yardım etmişdir.

Axtarış Xidmətinini fəaliyyəti ilə bağlı hər ay könüllülərə treyninqlər keçirilib, eləcə də Axtarış blankının və Ailə müraciətnaməsinin doldurulması qaydaları başa salınıb. Treyninqlərdə cəmi 180 könüllü iştirak edib.

2005-2006 illərdə SPACE TV- də yayımlanan “Poctalyon” verilişi Axtarış Xidmətinin fəaliyyətini işıqlandırmışdır.

2005-2006-cı illərdə Azərbaycan Dövlət radiosunda axtarış xidməti barəsində 4 veriliş efirə çıxmışdır.

Müxtəlif qəzetlərdə axtarışda olan insanların adları çap olunub.

Üzərində axtarış xidmətini əks etdirən 30 mayka, 2005-2006-cı illərdə 2000 ədəd plakat , azərbaycan və rus dillərində 800 buklet hazırlanmışdır.

2007-ci ilin əvvəlindən (09.03.07) ailə əlaqələrinin bərpası və itmiş sənədlərin tapılıası ilə əlaqədar 42 müraciət olunub.

2007-ci ilin əvvəlindən “Vışka” “Naş vek” və “Birja” qəzetlərində, eləcə də “Azərbaycan” və “Kaspi-plyus” Axtarışla bağlı 7 məqalə cap edib,

Axtarış barəsində yaşayış yerində AzQAC-ın müvafiq rayon komitələrinə müraciət edə bilərsiniz. Email- tracing@redcrescent.az. Ünvan: AZ1022, Bakı, S.Vurğun küç. 112. Faks: 493-15-78. Afət Mirzəzadə.

## MALİYYƏ HESABATI

2007

| Gəlirlər | 897 495,07 | faiz |
|---|---|---|
| o cumleden | | 100,0% |
| Beynəlxalq federasiya | 54 348,09 | 6,0% |
| BQX-Komitesi | 97 915,45 | 11,0% |
| Xarici donorlar-norvec | 14 388,77 | 2,0% |
| Budce vesaiti | 155 496,00 | 17,0% |
| uzvuluk haqlarindan | 476 549,00 | 53,0% |
| gelir geirme | 1 365,00 | 10,0% |
| ianə qutularından, təşkilatlardan yardımlar, ayrı ayrı səxslərdən | 80 432,76 | 9,0% |
| Sair gəlirlər | 17 000,00 | 2,0% |



2007

| | | |
|---|---|---|
| Xərclər | 991 008,13 | 100% |
| o cumleden | | |
| Beynəlxalq federasiya | 54 348,09 | 5% |
| BQX | 97 915,45 | 10% |
| xarici donorlar | 15 842,88 | 2% |
| Az QAC-a ödənilən vəsaitlər | 40 510,00 | 4% |
| Əhaliyə verilən maddi yardımlar | 467 500,00 | 47% |
| Az QAC hesabına verilən əmək haqqı | 153 000,00 | 15% |
| Beynəlxalq Federasiya tərəfindən ödənilən inzibati xərclər | 15 300,00 | 2% |
| Təsərrufat xərcləri və əmək haqqı | 124 491,71 | 13% |
| Sair | 22 100,00 | 2% |




Rayon və şəhər komitələri üzrə hesabat dövrünün göstəriciləri

Gəlirlərin təhlili göstərir ki, Az.QAC üzrə ümumi gəlirlərin azalması Beynəlxalq donorlar üzrə gəlirlərin azalması hesabına olmuşdur. Beynəlxalq donorlar üzrə gəlirlərin azalması əsasən Beynəlxalq Federasiyasının Azərbaycan Nümayəndəliyi tərəfindən maliyəşdirilən tədbirlər üzrə müşahidə olunur. Belə ki, Beynəlxalq Federasiya üzrə 2007-ci ildə maliyyəşdirən proqramlar 2005-ci ilə nisbətən 374 min.manata qədər azalıb və 2007-ci ildə gəlirlərin 6% təşkil edir.

Bununla yanaşa qeyd etməliyik ki, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən maliyyələşdirilən tədbirlərin həcmi hesabat dövründə artmışdır və 2007-ci ildə 97,9 min.manat təşkil edib və bu gəlirlərin 11%-dir. 2005-ci ilə nisbətən artım 41,5 min. manat, yaxud 73% təşkil edib.

Hesabat dövründə əvvəlki ilə nisbətən Dövlət budcəsi hesabına maliyyəşmənin həcmi artmışdır və gəlirin 17%-ni təşkil edir.

Respublikada quş qripinin yayılması nəticəsində, hesabat dövründə inkişaf proqramı olan «Quşçuluq» sahəsi üzrə gəlirlər olmamışdır və nəticədə əvvəlki ilə nisbətən azalmışdır və 2007-ci ildə 3 min. manat təşkil edir.

Hesabat dövründə ianə qutularından yığılan və ilk yardım kurslarından gələn gəlirlər 2005-ci ilə nisbətən 53,3 min. manat , yaxud 23,8% artmışdır və müvafiq olaraq gəlirlərin 9% təşkil edib.

Hesabat məlumatlarına görə respublikada daxili gəlirlər, xüsusilə rayon (şəhər) komitələrində yığılan üzvlük haqlarının həcmi 2007-ci ildə 2005-ci ilə nisbətən 92,2% və yaxud 476,5 min. manata artmışdır. Əgər 2005-ci ildə İcra Katibiliyinə vəsaitin köçürülməsi üzrə planlarını 43 təşkilat yerinə yetirmişdirsə, 2006-ci ildə maliyyə planlarını yerinə yetirilən təşkilatların sayı 48 olmuşdur, 2007-ci ildə isə -54.

Bildiyiniz kimi, Beynəlxalq Federasiyasının Azərbaycan Nümayəndəliyindən və Beynəlxalq Qızıl Xaç Komitəsindən daxil olmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramlarının yerinə yetirilməsinə yönəldirilmişdir.

Az.QAC hesabına edilən yardımlar ildən-ilə artırılır və 2005-ci ilə nisbətən artım 140,1 min. manat, yaxud 19,6% təşkil edir. Qeyd etmək lazımdır ki, Rayon Komitələri də zavallı insanlara yardımlarını qaldırıblar. 2005-ci ilə nisbətən yardımların artımı 125,4 min. manata, yaxud 19% təşkil edir və bu çox fərəhləndirici bir göstəricidir. Təbii ki, təsərrüfat xərcləri 20% qalxıb, əmək haqqı 81,5%. Lakin əmək haqqı fondu illik xərclərin 29,2% təşkil edərək olunmuş 35% çərçivəsindədir.

## TARİX

10 **mart** 1920-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin
yaranma günü

1920-1991, Sovet İttifaqı Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Liqasının üzvü

25 **noyabr** 1994-**cü il**

Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında» qərarı ilə Milli Cəmiyyətin tanınması

01 **noyabr** 1995-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyəti Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmışdır.

26 **Noyabr** 1995-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının daimi, bərabər hüquqlu, həqiqi üzvü seçilmişdir.

**Dekabr** 2001-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının İdarəetmə Şurasında «Fövqəladə Hallara Hazırlıq və Yardım Komissiyası»na ekspert təyin olunmuşdur.

5 **Sentyabr** 2003-**cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» Sərəncamı

31 **Yanvar** 2004-**cü il**

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, möhtərəm, İlham Əliyev «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam imzalamışdır.

10 **mart** 2005-**ci il**

Qızıl Ayparanın 85 illik yubileyi münasibətilə Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə xüsusi xidmətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov və digər 6 əməkdaşı «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

8 **may** 2005-**ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tibb işçiləri Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək «Florens Naytinqeyl» medalına layiq görülmüşlər.

8 **may** 2007-**ci il**

«Azərbaycan Qızıl Aypra Cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu

22 **may** 2007-**ci il**

Azərbaycan Qızıl Aypra Cəmiyyəti haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

8 **may** 2007-**ci il**

«Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

22 **may** 2007-**ci il**

«Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

11 **iyul** 2007-**ci il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər və əlavə edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı